Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir.
O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.
Heydər ƏLİYEV

DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

13 sentyabr 2019-cu il № 65-68 (9347) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

BU SAYIMIZDA

"Om"təchizat-yedək gəmisi əsaslı təmirdən sonra yenidən istismara qaytarılıb

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasının balansında olan "Om" təchizat-yedək gəmisi əsaslı təmir edilib. Təmir işləri ASCO-nun "Bibiheybət" Gəmi Təmiri Zavodunda aparılıb.

Proses ərzində gəminin baş və köməkçi mühərrikləri, nasosları, boru sistemləri, yaşayış otaqları, sanitar qovşaqları və yeməkxana əsaslı təmir olunub.

Səh. 2

Azərbaycanın neft tarixində əvəzsiz rolu olan müqavilə - "Əsrin müqaviləsi"

Bu il Azərbaycanın neft sənayesi tarixində özünəməxsus yeri olan "Əsrin müqaviləsi"nin imzalanmasının 25-ci ildönümüdür. "Əsrin müqaviləsi" 1994-cü il sentyabrın 20-də Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" 7 ölkənin 11 ən iri neft şirkəti ilə imzalanmış müqavilədir.

Səh. 3

ASCO-nun gəmiləri "Pirşağı Tullantı Sutəmizləyici Qurğusu"nun tikintisi üzrə işlərini uğurla başa çatdırıblar

Azərbaycan hökuməti və Koreya İxrac-İdxal Bankının birgə maliyyələşdirdiyi Azərbaycanda yeni texnologiyalara əsaslanan ilk müasir "Pirşağı Tullantı Sutəmizləyici Qurğusu"nun tikintisi üzrə işlərin 90 faizdən çoxu yerinə yetirilib.

Pirşağı tullantı sutəmizləyici qurğusunun çıxış xəttinin 400 metrlik hissəsi quru, 1300 metrlik hissəsi isə dənizdə quraşdırılıb.

Səh. 4

UNUTSAQ, UNUDULARIQ

Dənizdə üzəndə də, sahildə işləyəndə də adı həmişə hörmətlə çəkilib

Mirzəağa Çəfər oğlu Xəlilov 1929-cu il sentyabrın 10-da Bakının Mərdəkan kəndində qulluqçu ailəsində dünyaya gəlib.

1946-cı ildə yeddinci sinfi bitirərək Bakı Dəniz Yolları Məktəbinə daxil olub və 1950-ci ildə bu təhsil ocağını "2-ci dərəcəli gəmi mexaniki" diplomu ilə bitirib.

Səh. 5

Gəmi ilə gəzinti uşaqların ürəyincə olub

Nəsimi rayon İcra Hakimiyyəti ilə Dənizkənarı Bulvar İdarəsinin birgə təşkilatçılığı ilə uşaqlar üçün Xəzər dənizində gəmi gəzintisi təşkil olunub.

Səh. 6

Elektron bilet: istifadəçi üçün hər cəhətdən sərfəli xidmət

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) müştərilərə təqdim etdiyi elektron bilet xidmətinə maraq çoxalıb.

Səh. 7

Ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş gənclər Prezident təqaüdünə layiq görülüblər

İlham Əliyevin 9 sentyabr tarixli Sərəncamına əsasən 2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdü veriləcək.

Dövlət İmtahan Mərkəzindən verilən məlumata görə, bu il Prezident təqaüdünə layiq görülən tələbələr respublikanın 27 şəhər və rayonunu təmsil edirlər. Təqaüdçülərin demək olar ki, yarısı regionlarda fəaliyyət göstərən məktəblərdən (o cümlədən 8 nəfər kənd məktəblərinin məzunudur), 1 nəfər internat tipli məktəbdən, 5 nəfər bir valideyni olmayan ailədən, eləcə də hərbçi, həkim, müəllim, aşpaz, balıqçı, satıcı və s. ailələrdən olan məzunlardır. Siyahıda olan 30 nəfərin valideynlərindən ən az biri müəllimlik fəaliyyəti ilə məşğul olur.

Təqaüdçülərdən 47 nəfər Bakıda yerləşən məktəblərin məzunlarıdır. Daha sonra Sumqayıtda yerləşən məktəblərin məzunlarından 8, Abşeron, Biləsuvar, Naxçıvanda yerləşən məktəblərin hər birindən 4 nəfər olmaqla bilik öncüllərini siyahıda görmək olar. Ümumilikdə 5 nəfər isə işğal altında olan rayonlara aid məktəblərin məzunudur.

Ayrıca məktəblərə gəldikdə isə Bakı Türk liseyinin (Türkiyə Dəyanət Vəqfi) 6, akademik Zərifə Əliyeva adına liseyin 5, Biləsuvar rayonu M.İbrahimov adına

Biləsuvar lisey-məktəb kompleksinin 4, Sumqayıt şəhəri Texniki və təbiət elmləri liseyinin 4, BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin 3 məzunu Prezident təqaüdçüləri siyahısındadır.

Qeyd edək ki, Prezident təqaüdçülərindən 25 nəfər Azərbaycan Tibb Universitetinə, 23 nəfər Bakı Ali Neft Məktəbinə, 21 nəfər Azərbaycan Dövlət İqtisad Universitetinə, 15 nəfər Bakı Dövlət Universitetinə, 7 nəfər ADA Universitetinə, 7 nəfər Dövlət İdarəçilik Akademiyasına, 1 nəfər Azərbaycan Dillər Universitetinə, 1 nəfər UFAZ-a, 2 nəfər isə xüsusi təyinatlı ali təhsil müəssisəsinə qəbul olunub.

Hər il tələbə qəbulu müsabiqəsində xüsusilə fərqlənərək, ən yüksək nəticə əldə edənlər gəncliyimizin intellektual elitasını təmsil edirlər. Onların təcrübəsi həm cəmiyyətdə, həm də məktəblərdə güclü təsirə malik örnək, nümunə rolunu oynayır. Bilik öncüllərinə qayğı göstərmək, onları həvəsləndirmək, inkişaflarına və potensial imkanlarının gerçəkləşməsinə kömək etmək, şərait yaratmaq dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılır.

Hələ 2001-ci il sentyabrın 3-də ulu öndər Heydər Əliyev təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək, onların təhsil alması üçün daha əlverişli şərait yaradılmasını təmin etmək və təhsilə olan həvəslərini artırmaq məqsədilə "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Fərman vermişdi. Həmin Fərmana uyğun olaraq, o vaxtdan hər il ölkəmizin ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş gənclərimiz Prezident təqaüdünə layiq görülür. Çox fərəhli haldır ki, Prezident İlham Əliyevin 2004-cü ildə verdiyi Sərəncamla Prezident təqaüdçülərinin sayı və onlara verilən təqaüdlərin məbləği daha da artırılmışdı. Xatırladaq ki, təqaüdün məbləği sonradan bir neçə dəfə də artırılıb və hazırda 210 manat müəyyən edilib.

Azərbaycan gəncliyinin intellektual elitasına göstərilən bu diqqət maddi stimuldan çox güclü mənəvi dəstək, ruhlandırıcı amil rolunu oynayır, təhsildə sağlam yarış mühitinin yaranmasına təsir göstərir.

"Ailə vəzifələri olan işçi"

Əmək qanunvericiliyinin təkmilləşdirilməsi işləri çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" yeni qanun layihəsində Məcəlləyə "Ailə vəzifələri olan işçi" anlayışının əlavə edilməsi də nəzərdə tutulur.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, Məcəllənin 3-cü maddəsinə nəzərdə tutulan əlavədə "Ailə vəzifələri olan işçi" anlayışı "himayəsində olan uşaqlarla, eləcə də həkim məsləhət komissiyasının rəyinə əsasən qulluğa və köməyə həqiqətən ehtiyacı olan digər ailə üzvləri (atası, anası, babası, nənəsi, əri (arvadı), uşaqları (o cümlədən övladlığa götürülənlər), doğma və ögey bacıları və qardaşları, nəvələri, ərinin (arvadının) valideynləri, qardaşları, bacıları) ilə münasibətdə ailə vəzifələri olan kişi və qadın işçi" kimi təqdim edilir.

Bununla paralel olaraq Əmək Məcəlləsinin "Əmək münasibətlərində ayrı-seçkiliyin yolverilməzliyi" adlanan 16-cı maddəsinə əlavə edilərək müəyyən ediləcəkdir ki, əmək münasibətlərində digər amillərlə yanaşı "ailə vəzifələri" amilinə görə də ayrı-seçkiliyə yol verilməsin.

Həmin dəyişiklikdə məqsəd milli qanunvericiliyin ölkəmizin qoşulduğu Beynəlxalq Əmək Təşkilatının "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli Konvensiyasına uyğunluğunu tam təmin etməkdir.

Hazırda Aşqabad və Bakı iqtisadi tərəfdaşlığın əsas diqqəti nəqliyyat və tranzit sahəsinə yönəldilib



Türkmənistan-Azərbaycan iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası birgə komissiyasının 5-ci iclası sentyabrın 13-də Aşqabadda keçiriləcək.

İclasda iki ölkə arasında iqtisadi əməkdaşlığın əsas istiqamətləri müzakirə olunacaq.

Qeyd edək ki, hazırda Aşqabad və Bakı iqtisadi tərəfdaşlığın əsas diqqəti nəqliyyat və tranzit sahəsinə yönəldilib. Türkmənistan və Azərbaycanın limanları vasitəsilə müntəzəm birbaşa beynəlxalq dəmir yolu - bərə əlaqəsinin təşkil edilməsi sahəsində əməkdaşlıq yüksək dərəcədədir.

Xatırladaq ki, komissiyanın indiyədək 4 iclası keçirilib. Sonuncu iclas 2014-cü il oktyabrın 2-də Bakıda təşkil edilib.

İri dövlət şirkətlərinin vahid məlumat bazası yaradılır

İri dövlət şirkətlərinə dair vahid məlumat bazası formalaşdırılır.

Nazirlər Kabineti "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları"nın təsdiq edilməsi barədə Qərar qəbul edib. Qərara əsasən, "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları" təsdiq olunub. Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) Maliyyə Nazirliyi və digər aidiyyəti olanlarla razılaşdırmaqla "İri dövlət şirkətlərinə dair vahid məlumat bazası" informasiya sisteminin fasiləsiz, dayanıqlı və təhlükəsiz fəaliyyətini təmin etmək məqsədilə tələb olunan maliyyə vəsaiti ilə bağlı təkliflərini bir ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "İri dövlət şirkətlərinə dair vahid məlumat bazası" informasiya sisteminin "Elektron Hökumət" İnformasiya Sisteminə inteqrasiyası ilə bağlı zəruri tədbirlər görəcək.

İnformasiya sistemi aşağıdakıları təmin edir:

• iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində şəffaflığın artırılmasına və səmərəliliyin yüksəldilməsinə nail olunmasını;

• iri dövlət şirkətlərinə dair maliyyə, kadr uçotu və daşınmaz əmlak üzrə məlumatların vahid bazada birləşdirilməsini;

• iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətinin müqayisəli təhlil edilməsini;

• informasiya sisteminin istifadəçiləri

tərəfindən iri dövlət şirkətlərinə dair müvafiq məlumatların real vaxt rejimində əldə edilməsini.

Sistemin operatoru Əmlak Məsələləri Dövlət Komitəsidir. İnformasiya sistemi üzrə xidmətlər ƏMDK-nın rəsmi internet 3 səhifəsində dövlət xidmətləri bölməsi, eləcə də "Elektron hökumət" portalı vasitəsilə göstərilir. İnformasiya sistemi Azərbaycan Respublikasının mülkiyyətidir.

İnformasiya sisteminin iştirakçıları aşağıdakılardır:

• bu Qaydaların 3-cü hissəsinə uyğun olaraq, informasiya sisteminə öz informasiya sistemi və ehtiyatlarından müvafiq məlumatları ötürən dövlət qurumları;

• bu Qaydaların 3-cü hissəsinə uyğun olaraq, informasiya sisteminə müvafiq məlumatları daxil edən və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 dekabr tarixli Sərəncamının 2 nömrəli əlavəsi ilə siyahısı təsdiq edilmiş iri dövlət şirkətləri.

İnformasiya sisteminin istifadəçiləri bu Qaydaların 3.1-ci bəndində qeyd edilən informasiya sisteminin müvafiq altsistemləri üzrə informasiya sisteminin iştirakçıları tərəfindən qeydə alınmış məlumatlardan "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq istifadə etmək hüququ olan aşağıdakı dövlət orqanlarıdır:

• maliyyə və mühasibat uçotu göstəriciləri üzrə məlumatları özündə əks etdirən altsistem üzrə: İqtisadiyyat, Maliyyə və Vergilər nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi və Dövlət Statistika Komitəsi;

• daşınmaz əmlaka dair məlumatları özündə əks etdirən altsistem üzrə: İqtisadiyyat və Maliyyə nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi və Dövlət Statistika Komitəsi;

• daşınmaz əmlaka dair məlumatları özündə əks etdirən altsistem üzrə: İqtisadiyyat və Maliyyə nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi və Dövlət Statistika Komitəsi.

İnformasiya sisteminin istifadəçiləri bu Qaydaların 1.7-ci bəndinə uyğun olaraq, sistemin iştirakçıları tərəfindən qeydə alınmış məlumatlardan ödənişsiz istifadə edirlər. Sistemin saxlanılması, fəaliyyəti və inkişafı ilə bağlı xərclər dövlət büdcəsinin vəsaiti və normativ hüquqi aktlarla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir. İnformasiya sistemində əks etdirilən məlumat və hesabatların formaları Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi ilə razılaşdırılmaqla müəyyən olunur və zərurət yarandıqda, həmin məlumat və hesabatların formalarına yenidən baxılır.

İştirakçılar tərəfindən bu Qaydaların 3.1.3-cü yarımbəndinə uyğun olaraq, daşınmaz əmlaka dair altsistemində göstərilən məlumatlar yarımillik olmaqla hesabat dövrü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq informasiya sisteminə daxil edilməlidir. İştirakçılar və istifadəçilər onların adından informasiya sistemində aparılan bütün əməliyyatlara görə qanuna müvafiq olaraq məsuliyyət daşıyırlar. İştirakçının və istifadəçinin, habelə onları təmsil edən səlahiyyətli şəxslərin məlumatlarında hər hansı dəyişiklik olduqda (iş yeri, əlaqə vasitələri barədə məlumatlar, vəzifə və funksiyası dəyişdikdə, əmək müqaviləsinə xitam verildikdə və sair) bu barədə operatora dərhal məlumat verilməlidir.

Azərbaycanın uğurlu inkişafı, sənaye sahəsində, iqtisadi sahədə inkişaf əhalinin artımına bilavasitə təsir edən amildir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Əhalinin siyahıyaalınmasında fəal iştirak etmək hər birimizin vətəndaşlıq borcudur

Oktyabrın 1-dən 10-dək ölkəmizdə əhalinin növbəti siyahıyaalınması keçiriləcək. Siyahıyaalmanın əhəmiyyəti, bu məsələyə beynəlxalq və milli səviyyədə xüsusi diqqət ayrılmasının səbəbi nədir? Növbəti siyahıyaalma zamanı tətbiq ediləcək yeniliklər hansılardır və prosesə hazırlıq vəziyyəti hansı səviyyədədir?

Bu və buna bənzər bir çox suallara Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini, iqtisad üzrə fəlsəfə doktoru Vahab Məmmədovun məqaləsində cavab tapa bilərsiniz. Məqaləni diqqətinizə təqdim edirik.

X X X

Ölkəmizin iqtisadi və sosial inkişafı sahəsində davamlı tərəqqinin əldə edilməsinin əsas fundamental amillərindən biri son 25 ildə qəbul olunan dövlət strategiyaları və proqramlarının başlıca hədəfinin insan kapitalının inkişafı və əhalinin sosial rifahının yaxşılaşdırılmasının olmasıdır. Ulu öndər Heydər Əliyevin bünövrəsini qoyduğu bu siyasət qloballaşan dünyada yeni çağırışlara cavab olaraq Prezident İlham Əliyev tərəfindən zənginləşdirilməklə uğurla həyata keçirilir. Aparılan sosial, iqtisadi islahatlar nəticəsində əldə olunmuş makroiqtisadi sabitlik fonunda əhalinin sosial rifahının yaxşılaşması ölkəmizdə dayanıqlı inkişafın təmin olunmasına imkan yaratmaqla yanaşı, demoqrafiya və əhali sakinliyi sahəsində müsbət meyillərin stimullaşdırılmasına təkan verir.

Beynəlxalq təcrübə göstərir ki, inkişaf tendensiyalarının saxlanılması, sosial, iqtisadi vəziyyətin kəmiyyət və keyfiyyət baxımından dolğun qiymətləndirilməsi, hərtərəfli təhlillərin aparılması və ölkənin dayanıqlı inkişafı naminə vaxtında, daha düzgün və əsaslandırılmış qərarların qəbulu üçün əsas informasiya mənbəyi əhalinin siyahıyaalınmasıdır. Buna baxmayaraq, bir sıra hallarda ictimaiyyətdə belə bir sual yaranır ki, əhalinin siyahıyaalınmasına istər beynəlxalq, istərsə də milli səviyyədə bu qədər böyük diqqət ayrılmasının səbəbi nədir və belə genişmiqyaslı tədbirin keçirilməsinin xüsusi əhəmiyyəti nə ilə bağlıdır?

İlk növbədə qeyd etmək lazımdır ki, əhalinin sayı, strukturu, ərazi baxımından sakinləşməsi, etnik tərkibi, təhsil səviyyəsi, sosial-iqtisadi vəziyyəti və digər xüsusiyyətləri baxımından siyahıyaalma dövlət informasiya ehtiyatlarının formalaşması üçün unikal bir mənbə kimi xarakterizə edilir və müəyyən bir tarixə demoqrafik və sosial-iqtisadi məlumatların əldə edilməsi üçün xüsusi imkan yaradır.

Siyahıyaalma zamanı əldə olunan məlumatlar sosial, iqtisadi sahələrin inkişafı, ümumilikdə əhalinin rifahının yüksəldilməsi üçün müvafiq siyasətin formalaşmasında və həyata keçirilməsində mühüm rol oynayır. Bununla yanaşı, əhalinin siyahıyaalınması nəticəsində əldə olunan məlumatlar dövlət büdcəsinin formalaşmasında (dəqiq statistik məlumatlar olmadan effektiv investisiya siyasətinin müəyyən edilməsi və dövlət maliyyə resurslarının bölgüsünə nail olmaq mümkün deyil), əmək ehtiyatlarından səmərəli istifadə və işsizliyin azaldılmasında, səhiyyə, təhsil, kommunikasiya infrastrukturları və mənzil fondunun inkişafı və bir çox digər sosial-iqtisadi problemlərin həll olunmasında olduqca zəruridir. Siyahıyaalma məlumatları investorlara əhalinin əsas demoqrafik xüsusiyyətləri, əmək ehtiyatları və istehlak bazarı haqqında beynəlxalq standartlara cavab verən məlumatlar əldə etmək imkanı verir, əhali və əmək ehtiyatlarına dair marketinq tədqiqatlarının aparılmasını şərtləndirən uzunmüddətli biznes layihələri üçün informasiya bazası rolunu oynayır. Ölkənin əmək bazarındakı real vəziyyətin mürəkkəb və çoxşaxəli olması ilə əlaqədar cari rəsmi statistika hesabatları və tematik statistik müayinələr əsasında toplanan məlumatlar məşğulluq vəziyyətinin qiymətləndirilməsi üçün tam mənzərəni xarakterizə etməyə imkan vermir və əmək bazarında məşğulluğun inkişafı üçün yeni strategiya və proqramların hazırlanmasında məlumat çatışmazlığı yaranır. Bu baxımdan siyahıyaalmanın nəticələri əmək ehtiyatlarından istifadənin kəmiyyət və keyfiyyət parametrləri, işçi qüvvəsinin xarakteristikaları, o cümlədən əhalinin məşğulluq statusu (muzdlu işçilər, özünüməşğul), işsizliyin səviyyəsi, təhsil sisteminin əmək bazarının tələblərinə uyğunluğu barədə daha ətraflı məlumatlara giriş imkanı verir. Siyahıyaalınmanın əhəmiyyətindən biri də Azərbaycanda ailənin vəziyyətinə dair dolğun məlumatların əldə edilməsi və bunun əsasında ölkədə həyata keçirilən ailə siyasətinin daha da gücləndirilməsinə imkan yaradılmasıdır.

Siyahıyaalmadan əldə olunan məlumatlardan ölkənin sosial-iqtisadi inkişaf sahəsində siyasətin formalaşdırılması, demoqrafik cərəyanların təhlili, qəbul edilmiş inkişaf strategiyaları və proqramlarının səmərəliliyini qiymətləndirmək üçün istifadə edilir. Bir sözlə, əhalinin siyahıyaalınmasının nəticələri ölkəmizin sosial-iqtisadi həyatının bütün sferalarını əhatə etməklə statistik informasiya sisteminin əsasını təşkil edir. Əhalinin siyahıyaalınması bir tərəfdən mühüm siyasi və sosial-iqtisadi tədbirdir, digər tərəfdən isə gələcək inkişaf strategiyalarının hazırlanması üçün əsas məlumat bazasıdır.

Beləliklə, yuxarıda qeyd olunanlar əhalinin siyahıyaalınması ilə bağlı ictimaiyyətdə siyahıyaalınmanın əhəmiyyətinə dair yaranmış suala cavab kimi qiymətləndirilə bilər və vurğulamaq lazımdır ki, siyahıyaalma ötən onilliklər ərzində bütün dünya ölkələrində öz aktuallığını və tarixi dəyərini saxlayır.

Məlumat üçün qeyd etmək lazımdır ki, cari ilin oktyabrın 1-10-da həyata keçiriləcək əhalinin siyahıyaalınması müstəqil Azərbaycan Respublikasının tarixində sayca üçüncüdür. "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 sentyabr tarixli Fərmanının icrası ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" 2016-cı il 16 dekabr tarixli Qərarına əsasən siyahıyaalma ilə əlaqədar hazırlıq və onun keçirilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin vaxtında və mütəşəkkil yerinə yetirilməsini, qarşıya çıxan çətinliklərin operativ surətdə aradan qaldırılmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavininin və şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti başçılarının müavinlərinin sədrliyi ilə ümumilikdə ölkə üzrə 86 əhalinin siyahıyaalınmasına yardım komissiyaları yaradılıb, aidiyyəti dövlət orqanlarının əhalinin siyahıyaalınması ilə bağlı müvafiq vəzifələri müəyyən edilib. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsini və onun keçirilməsini təmin etmək məqsədilə geniş tədbirlər planı həyata keçirilib. Belə ki, ölkəmizin müstəqilliyi dövründə əhalinin siyahıyaalınmalarının (1999 və 2009-cu illər) keçirilməsi təcrübəsi, o cümlədən təşkilati işlər və metodoloji baza təhlil edilib, BMT-nin 2020-ci il raundu çərçivəsində əhalinin və mənzil fondunun siyahıyaalınması üzrə ümumdünya proqramının tövsiyələrinə və ölkənin sosial-iqtisadi inkişafına yönəlmiş milli prioritetlərə əsaslanaraq bütün metodoloji sənədlər yenidən işlənib və təkmilləşdirilib. Bir sıra xarici ölkələrin (Rusiya Federasiyası, Türkiyə, Belarus, Qazaxıstan, Gürcüstan və sair) əhalinin siyahıyaalınmasının keçirilməsi ilə bağlı yanaşmaları öyrənilib, BMT-nin Əhali Fondunun (UNFPA), Uşaq Fondunun (UNİCEF), BMT-nin İnkişaf Proqramının (UNDP), Beynəlxalq Əmək Təşkilatının, Beynəlxalq Miqrasiya Təşkilatının, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının ölkəmizdə akkreditə olunmuş nümayəndəlikləri ilə əhalinin siyahıyaalınması ilə bağlı əməkdaşlıq istiqamətləri müəyyən edilib.

2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi ilə bağlı tətbiq ediləcək siyahıyaalma və sorğu vərəqələrində bir sıra yeniliklər öz əksini tapıb. Siyahıyaalınmada istifadə olunacaq sorğu vərəqəsinə ilk dəfə olaraq əlilliyə dair suallar əlavə edilib. Bu suallar ölkədə sağlamlıq imkanları məhdud uşaqların və əlilliyi olan şəxslərin mənzil-məişət şəraitinə, təhsilinə, məşğulluğuna və əhalinin siyahıyaalınması çərçivəsində toplanan digər göstəricilərə dair məlumatlar şəhər və rayonlar, eləcə də yaş qrupları üzrə əldə ediləcək. Bu da öz növbəsində əlillərin sosial müdafiəsi və onların cəmiyyətə inteqrasiyası ilə bağlı dövlət siyasətinin inkişafı üçün zəruri məlumatlara olan tələbatın ödənilməsi səviyyəsini artıracaq. Bununla yanaşı, əldə ediləcək məlumatlar Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş bir sıra müvafiq beynəlxalq konvensiyalar, o cümlədən BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyası çərçivəsində götürülmüş öhdəliklərin milli səviyyədə icrasının daha dolğun statistik qiymətləndirilməsinə və beynəlxalq təşkilatlardan daxil olan əhalinin bu kontingentinə dair sorğuların əhatəli cavablandırılmasına imkan verəcək. İnzibati ərazi vahidləri üzrə əmək ehtiyatlarının istifadəsini və əmək bazarında mövcud vəziyyəti daha dolğun təhlil etmək məqsədilə beynəlxalq metodoloji yanaşmalara əsaslanaraq sorğu anketinə işçi qüvvəsinin tərkibi və əhalinin məşğulluğuna dair bir sıra suallar daxil edilib.

Siyahıyaalma və sorğu vərəqələrində istifadə olunan terminlər milli normativ və beynəlxalq sənədlərə əsaslanır. Vərəqələr elə tərtib olunub ki, alınacaq məlumatlar bundan əvvəlki siyahıyaalmanın göstəriciləri ilə müqayisə aparılmasına imkan yaratsın. 2019-cu il əhali siyahıyaalınması bütün əhali üçün vahid olan siyahıyaalma proqramı əsasında sayıcılar tərəfindən bütün yaşayış yerlərini (müvəqqəti yaşayış yeri də daxil olmaqla) əhatə etməklə sorğu yolu ilə aparılacaq. Bu yanaşma nəticəsində əhalinin faktiki məskunlaşması barədə də mühüm məlumatlar əldə ediləcək.

Qeyd etmək lazımdır ki, əhalinin siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədilə 2018-ci il oktyabrın 1-10-da Qəbələ rayonunda əhalinin sınaq siyahıyaalınması keçirilib. Sınaq siyahıyaalınması zamanı Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış 50-dən çox metodoloji və köməkçi sənədlərin, proqram təminatlarının uğurla sınağı aparılıb. Sınaq siyahıyaalınmasından əldə olunmuş təcrübələr əsas siyahıyaalınmanın keçirilməsində istifadə olunacaq.

Siyahıyaalmanın uğurla həyata keçirilməsinin əsas şərtlərindən biri də əhalinin siyahıyaalınmasının inzibatiləşdirilməsi və siyahıyaalmaya cəlb olunacaq müvafiq kadr potensialının formalaşdırılmasıdır. Əhalinin siyahıyaalınmasına hazırlıqla bağlı Azərbaycan Respublikasının inzibati ərazi vahidləri üzrə təşkilati planların tərtib edilməsi nəticəsində ölkə ərazisi 720 siyahıyaalma, 6777 təlimatçı və 33907 sayıcı məntəqəsinə bölünüb, siyahıyaalınmaya cəlb olunacaq işçilərə olan tələbat müəyyən edilərək siyahıyaalma məntəqələrinin işçilərlə komplektləşdirməsi işi başa çatdırılıb.

Siyahıyaalmaya cəlb edilmiş bütün işçilər üçün xüsusi təlim proqramları hazırlanıb. Bu təlim proqramları Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi qaydalarını, siyahıyaalma və sorğu vərəqələrinin doldurulmasına dair göstərişləri, yerli statistika orqanlarının rəislərinin və Siyahıyaalma qrupu rəhbərinin şəhər, rayon və şəhər rayonu üzrə nümayəndələrinin, siyahıyaalma məntəqəsi müdirləri və onların müavinlərinin, təlimatçı-nəzarətçilərin və sayıcıların əhalinin siyahıyaalınması ilə bağlı vəzifələrini və fəaliyyət istiqamətlərini, ümumilikdə əhalinin siyahıyaalınması ilə bağlı hazırlanmış müvafiq metodoloji və digər sənədlərin izahlı əyani təqdimatını əhatə edib. Siyahıyaalma məlumatlarının elektron məlumat sisteminə daxil edilməsi və yekunların işlənməsi üçün məsələ qoyuluşu və çıxış cədvəllərinin nümunələri, habelə kodlaşdırma soraqçaları və müvafiq proqram təminatı hazırlanıb. Hazırlanan müasir proqram təminatları əsasında məlumatların ümumi bazaya daxil edilməsi mərhələsində əhali uçotunun tamlığı və düzgünlüyü, məlumatların məntiqi cəhətdən yoxlanılması məqsədilə nəzarət olunması təmin ediləcək.

Məlumdur ki, siyahıyaalmanın müvəffəqiyyətlə keçirilməsi əhali arasında maarifləndirmə işlərinin necə təşkil olunmasından çox asılıdır və bu məqsədlə əhalinin məlumatlandırılması üçün zəruri forma və metodlardan istifadə olunur. Kütləvi informasiya vasitələrinin imkanlarından səmərəli istifadə edilməsi əhalinin siyahıyaalınmasının mütəşəkkil keçirilməsi üçün xüsusi əhəmiyyət daşıyır. "Dayanıqlı gələcək naminə siyahıyaalınmada öz töhfəni əsirgəmə!" şüarı altında həyata keçirilən tədbirlərin əsas məqsədi əhalinin siyahıyaalmada könüllü olaraq fəal iştirakının təmin edilməsinə, siyahıyaalınmanın əhəmiyyəti və məqsədinə dair (ictimai maarifləndirmə və izahatı) təbliğat və maarifləndirmə işlərinin aparılmasıdır. Bu məqsədlə hazırlanmış müvafiq sosial videoçarxlar mərkəzi və yerli televiziya kanallarında, aparıcı elektron media vasitələrində, eyni zamanda paytaxtın mərkəzi küçə və prospektlərində quraşdırılmış monitorlarda, Bakı Metropoliteni və Dənizkənarı Milli Parkın elektron lövhələrində yayımlanır. Təşviqat xarakteri daşıyan banerlər və plakatlar ölkənin bütün rayon və şəhərlərində müəyyən olunmuş dislokasiyalar üzrə yerləşdirilib. Bununla yanaşı, əhalinin siyahıyaalınması ilə bağlı maarifləndirmə tədbirlərinə töhfə vermək, əhalinin siyahıyaalınmasının əhəmiyyəti haqqında ictimaiyyəti geniş məlumatlandırmaq və əhali arasında təşviqat işlərini stimullaşdırmaq məqsədilə Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu əhalinin növbəti siyahıyaalınması ilə bağlı tədbirlərin ictimaiyyətə dolğun şəkildə çatdırılması məqsədilə fərdi jurnalist yazıları müsabiqəsini elan edib.

Əziz oxucu, dövlətimizin inkişafına, müstəqilliyimizin gücləndirilməsinə və ölkənin hər bir vətəndaşının sosial rifahının daha da yaxşılaşdırılmasına təkan verəcək əhalinin siyahıyaalınmasında fəal iştirak etmək hər birimizin vətəndaşlıq borcudur.

ADDA-da ingilis dilində tədris olunan ixtisasların və qrupların sayı artır

Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi Şurasının 2019/2020-ci tədris ilində ilk iclası keçirilib.

Rektor Heydər Əsədov Elmi Şura üzvlərini yeni dərs ilinin başlanması münasibəti ilə təbrik edərək, ADDA-da tədris prosesinin bu il də ötən illərdə olduğu kimi, yüksək səviyyədə təşkil olunacağına əminliyini bildirib.

Heydər Əsədov həmçinin qeyd edib ki, 2019-cu ildə ingilis dilində tədris olunan ixtisasların və qrupların sayı artıb. Buna səbəb ADDA-nın məzunlarına nəinki ölkəmizdə, hətta xaricdə də tələbat yaranmasıdır. Rektor ingilis dilində tədrisin daha da təkmilləşdirilməsi üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğunu Elmi Şura üzvlərinin diqqətinə çatdırıb. Aparılan müzakirələrdən sonra "Gəmi sürücülüyü" fakültəsinin tərkibində "İngilis dili" kafedrasının təşkili barədə qərar qəbul olunub.

"Om"təchizat-yedək gəmisi əsaslı təmirdən sonra yenidən istismara qaytarılıb

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasının balansında olan "Om" təchizat-yedək gəmisi əsaslı təmir edilib. Təmir işləri ASCO-nun "Bibiheybət" Gəmi Təmiri Zavodunda aparılıb.

Proses ərzində gəminin baş və köməkçi mühərrikləri, nasosları, boru sistemləri, yaşayış otaqları, sanitar qovşaqları və yeməkxana əsaslı təmir olunub. Bundan başqa, istismar müddəti bitmiş iki ədəd "1LA4 280-4SA90-Z" tipli hava kompressoru müasir "MAS GA 75" tipli hava kompressoru ilə əvəzlənib.

Tərsanə təmiri zamanı isə gəminin sualtı və suüstü hissələri təmizlənərək rənglənib, dib-yan armaturlarının, hərəkət-sükan, protektor qurğularının təmiri yerinə yetirilib.

Mexanizm və elektrik avadanlıqlarının təmiri başa çatdıqdan sonra "Om" dəniz sınağından uğurla keçib və Xəzər Dəniz Neft Donanmasına məxsus Liman-bazaya göndərilib.

"Om" gəmisi ASCO-nun digər təchizat-yedək gəmiləri kimi, dənizdəki neft-qaz çıxarma obyektlərinin təchizatında, bilavasitə ağır konstruksiyaların, qazma qurğularının yedəklənməsində, lövbərlərin daşınmasında iştirak edəcək.

"Daha çox baş verəcək qasırğalar və dəniz səviyyəsinin artması ada dövlətlərin və sahilyanı şəhərlərin su altında qalmasına səbəb olacaq"

Cenevrədə keçirilən BMT-nin İnsan Haqları Şurasının 42-ci sessiyasının açılışında çıxış edən təşkilatın insan haqları üzrə Ali komissarı Mişel Baçelet bildirib ki, qlobal istiləşmənin nəticələri fəlakətli olacaq. O, bəşəriyyəti iqlim dəyişmələrinin ağır nəticələrindən xilas etməyə çağırıb.

BMT-nin saytı xəbər verir ki, Ali komissarın sözlərinə görə, sözügedən problem istisnasız olaraq bütün ölkələrə aiddir və sosial-iqtisadi sarsıntılar, silahlı münaqişələrin sayının artması, əhalinin köçü və hətta ölüm hallarının kəskin artması ilə müşayiət olunacaq.

M.Baçelet əlavə edib ki, qlobal istiləşmənin gözlənilən trayektoriyası insan haqları üçün də fəlakətli nəticələr doğuracaq. Daha çox baş verəcək qasırğalar və dəniz səviyyəsinin artması ada dövlətlərin və sahilyanı şəhərlərin su altında qalmasına səbəb olacaq. "Meşələrimiz yanır, buzlaqlarımız əriyir. İnsanlıq sözün həqiqi mənasında öz gələcəyini "yandırır", -deyə Baçelet vurğulayıb.

Dünya Səhiyyə Təşkilatı və BMT-nin Ərzaq Proqramının hesabatlarına istinad edən Baçelet bildirib ki, iqlim dəyişmələri artıq dünyanın bəzi yerlərində aclığa səbəb olub, 2030-2050-ci illərdə isə ildə 250 min insan bu səbəbdən həyatını itirə bilər. İnsanlar malyariya, diarreya, aclıq və günvurmalardan ölürlər.

M.Baçelet sonda deyib: "Dünya hələ heç bir vaxt insan haqlarına və varlığına bu cür təhlükə ilə üzləşməyib. Dövlətlər bu istiqamətdə daha təsirli tədbirlər görməli, "istixana qazları"nın emissiyası azaldılmalı, bərpaolunan enerji mənbələrindən daha geniş şəkildə istifadə olunmalıdır".

Translogistika sərgisində Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu müzakirə olunacaq

Almatıdakı Atakent Sərgi Mərkəzində 23-cü Qazaxıstan Beynəlxalq "Nəqliyyat və Logistika" Sərgisi keçiriləcək.

Sentyabrın 18-20-də baş tutacaq sərgidə "Nəqliyyat və Logistika Bazarı" II Beynəlxalq konfrans və dəyirmi masalar keçiriləcək.

"TransLogistica Kazakhstan 2019" nəqliyyat və logistika sahəsindəki problemlərin G2B və B2B formatında dövlət qurumları və müəssisələrin rəhbərləri arasında müzakirə edilən mərkəzləşdirilmiş və effektiv dialoq platformasıdır.

Bu il iştirakçılar nəqliyyat sənayesinin inkişafı: hava yüklərinin potensialı və yol infrastrukturunun yaxşılaşdırılması, konteyner daşımaları bazarındakı əsas tendensiyalar, rəqəmsallaşdırma və normativ bazanın təkmilləşdirilməsi və qanunvericilikdəki problemlərin həlli məsələlərini müzakirə edəcəklər.

"Nəqliyyat və Logistika Bazarı" konfransının əsas mövzuları isə "Avrasiya nəqliyyat sistemlərinin inkişafı sahəsində dövlət siyasəti", "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu - Xəzər dənizi üzərindəki logistik körpüdür", "Konteyner nəqliyyatı tranzit və sənaye logistikasında inkişafının əsas aparıcısıdır" və "Daşınma fond: bazarlar və meyllər, yenilik və tənzimləmə" olacaq.

Konfransda yerli dövlət şirkətlərin və xarici nümayəndələrin, sənaye birlikləri və həmkarlar ittifaqlarının rəhbərləri, nəqliyyat və logistika sahələrin mütəxəssislərinin hesabatları dinləniləcək.

İlahə Əhmədova

Azərbaycanın neft tarixində əvəzsiz rolu olan müqavilə - "Əsrin müqaviləsi"

Bu il Azərbaycanın neft sənayesi tarixində özünəməxsus yeri olan "Əsrin müqaviləsi"nin imzalanmasının 25-ci ildönümüdür. "Əsrin müqaviləsi" 1994-cü il sentyabrın 20-də Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" 7 ölkənin 11 ən iri neft şirkəti ilə imzalanmış müqavilədir. "Əsrin müqaviləsi"nin ölkənin neft sənayesinin inkişafındakı əhəmiyyətini nəzərə alaraq istehsalatçı alim, geologiya-mineralogiya elmləri doktoru, professor Hümbət Vəliyevin məqaləsini təqdim edirik.

Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirmək, iqtisadiyyatını yenidən qurmaq üçün neft sənayesinə böyük həcmdə kapital cəlb etmək məqsədilə xarici dövlətlərlə iqtisadi və siyasi əlaqələr qururdu. Azərbaycan məhz bunun üçün Xəzərin neft və qaz ehtiyatlarının xarici şirkətlərlə birgə işlənməsi yolunu tutdu. Xalqın təkidi ilə 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən ulu öndər Heydər Əliyev qurduğu yeni hökumətin qarşılaşdığı iqtisadi çətinliklərin həlli yollarından biri məhz neft və qaz strategiyasını daha mükəmməl həyata keçirmək idi. Ölkənin maliyyə vəsaitinin məhdudluğu, neft-qaz sənayesinin müasir dünya texnologiyalarından geri qalması xarici neft şirkətlərini bu sahəyə sərmayə qoyuluşuna cəlb etmək zərurətini yaratmışdı. Lakin xarici ölkələrin neft şirkətləri Azərbaycanın müstəqilliyinin daimi olmayacağından ehtiyat edir, onlar Azərbaycanın neft sənayesinə sərmayə qoymaqdan çəkinirdilər. Belə çətin və mürəkkəb vaxtda siyasi rəhbərliyə gələn ümummilli lider Heydər Əliyev respublikanın neft sənayesi ilə daha yaxından məşğul olmağa başladı. O vaxt "Azəri", "Çıraq" və "Günəşli" yatağının dərinsulu hissəsinin ehtiyatlarının mənimsənilməsi üçün iki variantdan birini seçmək - ya ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin düzəlməsi üçün 30-40 il gözləməli, ya da xarici neft şirkətlərini respublikaya dəvət etmək lazım idi. Dövlət dünyanın lider neft ölkələri – ABŞ, Böyük Britaniya, Norveç və başqaları ilə birgə iş birliyi qurmaq yolunu seçdi. Çünki neft sənayesi böyük sərmayə qoyuluşu və müasir qazıma texnologiyası tələb edirdi. Belə imkanları olan ölkələr, xüsusilə də dənizdə bu riskə təklikdə getmək istəmirdi. Həmin dövrdə dünyanın inkişaf etmiş ölkələrinin neft şirkətlərinin diqqəti Azərbaycanda idi. Onlar Azərbaycanın neft ehtiyatlarının olduqca çox olduğunu bilir, ölkə ərazisində zəngin neft-qaz yataqlarının varlığından məlumatlı idilər. Azərbaycan neftinin keçmiş sovet ölkəsinin inkişafında müstəsna rolu olmuş, ancaq Azərbaycan xalqı neftdən çox az mənfəət götürmüşdü. Müstəqil dövlət kimi isə neft yataqlarından elmi əsaslarla, ağılla, qənaətlə istifadə edilməsə uğur qazanmaq mümkün olmazdı. Bəzi insanlar reallığı dərk etmədən, Azərbaycanın texnoloji imkanlarını bilmədən, xarici şirkətlərin neft sənayesinin inkişafına cəlb olunmasını düzgün saymırdılar. O vaxtadək Xəzərdə istifadə olunan texniki vasitələr yalnız dənizin dərinliyi 40 metrədək olan sahələrində işləməyə imkan verirdi. Onlar öz gücümüzə qısa bir mərhələdə böyük gəlir götürməyin mümkünlüyünü iddia edirdilər. Azərbaycan hökuməti həmin dövrdə çox düzgün qərar verərək neft sərvətindən kifayət qədər düzgün istifadə edilməsi üçün yeni mərhələdə xarici neft şirkətləri ilə əlaqə qurmaq, sazişlər bağlamaqla dövlətin həm iqtisadiyyatını, həm milli qüdrətini, həm də dövlətçiliyini möhkəmləndirmək qərarına gəldi.

Azərbaycan Prezidenti Heydər Əliyev yeni neft siyasətini həyata keçirmək məqsədilə 1994-cü ilin fevralında Böyük Britaniyaya səfər etdi. Bu səfər zamanı Azərbaycan və Böyük Britaniya arasında 8 hökumətlərarası müqavilə, o cümlədən də "Neft sənayesi sahəsində əməkdaşlıq haqqında" saziş imzalandı. Danışıqlarda, həmçinin Böyük Britaniyanın "British Petroleum" (BP) şirkətinə "Çıraq" və "Azəri" yataqlarının işlənməsi üzrə yaradılmış beynəlxalq konsorsiumda prioritet yer, o cümlədən də konsorsiumun qərb iştirakçıları üçün ümumi investisiya payında 31 faiz yer ayrıldı. Bundan əlavə, ulu öndər Heydər Əliyev İngilis-Norveç alyansı olan "British Petroleum"-"Statoil"un gələcəkdə "Şahdəniz" neft yatağının işlənməsi üzrə bağlanacaq müqavilədə xüsusi hüquqa malik olması məsələsinə də razılıq verdi. Ümummilli lider Heydər Əliyevin Böyük Britaniyaya rəsmi səfərindən sonra beynəlxalq konsorsiumda neft yataqlarının işlənməsi barədə danışıqlar rəsmi səviyyədə sürətləndirildi. 1994-cü ilin yazında İstanbul və Hyustonda danışıqların son mərhələsini aparan Azərbaycan nümayəndə heyəti milli maraqlara tamamilə cavab verən müqavilə şərtləri hazırladı. Bu danışıqların nəticəsində 1994-cü il sentyabrın 20-də Bakının möhtəşəm Gülüstan sarayında "Əsrin müqaviləsi" kimi tarixi bir ad almış ilk neft müqaviləsi imzalandı. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin (HPBS) imzalanması ilə ölkəmizin neft sənayesi tarixində tamamilə yeni bir səhifə açıldı. Azərbaycanın neft sənayesinin, ümumiyyətlə iqtisadiyyatının inkişafında, bütün xalqımızın güzəranının yaxşılaşmasında yeni dövrün əsasını qoyan "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanmış iş XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etdi. Bu sazişdə 7 ölkənin 11 neft şirkəti təmsil olunurdu. Həmin müqaviləyə əsasən, Azərbaycanın dəniz yataqları olan "Çıraq", "Azəri" və "Günəşli" yataqlarının mənimsənilməsi 30 il müddətinə nəzərdə tutulurdu. 1994-cü ilin dekabrında "Əsrin müqaviləsi" Azərbaycan parlamentində təsdiq edildi.

Əsrin müqaviləsi"nin imzalanması və uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu xeyli yüksəldi. Həmin dövrdə ABŞ Prezidenti Bil Klinton, Böyük Britaniyanın Baş naziri Toni Bleyer, Türkiyə Prezidenti Süleyman Dəmirəl, Yaponiyanın Baş naziri, Norveçin, Belçikanın baş nazirləri, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Özbəkistan Prezidenti İslam Kərimov, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Səudiyyə Ərəbistanın kralı və bir sıra başqa dövlətlərin başçıları Azərbaycanın dünyanın bir çox dövlətlərinin iştirak etdiyi neft şirkətlərinin birgə işlərini, "Əsrin müqaviləsi"ni yüksək qiymətləndirirdilər. "Əsrin müqaviləsi"nin imzalanması, ölkəmizdə görülən işlər dünyaya bir daha sübut etdi ki, Xəzər dənizinin Azərbaycan sektorunda çox zəngin neft-qaz yataqları var və Azərbaycan dövləti ilə uzunmüddətli, etibarlı əməkdaşlıq etmək olar. Bu saziş Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunmasına, ölkənin gələcək iqtisadi inkişafına və dünya iqtisadiyyatına inteqrasiyasına zəmin yaratdı.

Saziş imzalandığı zaman 2024-cü ilə qədər 30 illik dövrü əhatə etməsi nəzərdə tutulmuşdu. Lakin 2017-ci il sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Saziş imzalandı. Bu qərarlarla da "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək uzadıldı və mənfəət neftindən Azərbaycana çatacaq payın 75 faiz səviyyəsində olması razılaşdırıldı. Neft yataqlarından gələn gəlirlər bundan sonra da, ən azı 30 il Azərbaycan iqtisadiyyatına mühüm töhfələr verəcək.

Yeni sazişə əsasən, BP layihənin operatoru olaraq qaldı. Növbəti illərdə "Azəri-Çıraq-Günəşli" yataqlarına 40 milyard dollardan çox sərmayə qoyulması potensialı var. Saziş imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar bonus ödəniləcək. Həmçinin SOCAR-ın "AzAÇG" şirkəti podratçı kimi kontraktın icrasında iştirak etdi, SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırıldı və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faizə yüksəldi.

Bu müqavilənin imzalanmasına zəmin yaradan, elmi əsaslandırılmış tədqiqat işlərinin, elmi əsərlərin rolunu da çox yüksək qiymətləndirmək lazımdır. Neftçi alimlər, tədqiqatçılar uzun illər boyu apardıqları elmi işlərlə Cənubi Xəzər çökəkliyinin neftlilik-qazlılıq perspektivini çox düzgün qiymətləndiriblər. Alimlərimiz beynəlxalq elmi konfranslarda, simpozumlarda elmi çıxışlar edib, xarici jurnallarda Azərbaycanın neft potensialını əsaslandıran məqalələr, tezislər çap etdiriblər.

Cənubi Xəzər çökəkliyinin geodinamik-gərginlik şəraiti öyrənilib, çökmə örtüyün qalınlığının 25 kilometrdən çox olduğu və çökəklikdə 15 kilometrədək dərinlikdə termobarik şəraitin karbohidrogenlərin əmələ gəlməsi, miqrasiyası və neft-qaz yataqlarının formalaşması üçün çox əlverişli olduğu aparılmış elmi araşdırmalarla təsdiq edilib. Bu baxımdan əraziyə dair geoloji məlumatlar, palçıq vulkanların tullantı məhsulları, geofiziki və seysmoloji materiallar təhlil edilib, çökmə örtüyün struktur-tektonik quruluşu dəqiqləşdirilib, litoloji-petroqrafik-stratiqrafik əlamətləri araşdırılıb və neft-qaz yataqlarının formalaşmasında geodinamik-seysmik aktivliyin mühüm rolu olduğu faktiki materiallar əsasında göstərilərək elmi dəlillərlə əsaslandırılıb.

Dünyanın bir sıra regionlarında məsələn, Meksika körfəzində aparılan tədqiqatlarla müqayisə olunmaqla, Azərbaycanda "Bahar", "Bulla dəniz", "Şahdəniz", "Ümid", "Babək" və digər perspektiv strukturlarda dərin qatlarda çox böyük həcmdə karbohidrogen ehtiyatlarının mövcud olduğu və onun çıxarılmasının mümkünlüyü göstərilib. Biz alimlər, o dövrdə Cənubi Xəzər hövzəsində çökmə örtük qatının 6-15 kilometr intervalında da neft və qaz yataqlarının olması ehtimalının çox inandırıcı olduğunu, burada süxurların litoloji tərkibi, kollektor xüsusiyyətləri və struktur tektonik quruluşu, tektonik qırılmalarla mürəkkəbləşmiş laylı mühitin olması neft-qaz yataqlarının mövcudluğunu təsdiqləyən dəlillərlə çıxış edirdik. Bu regionda 2000 metr dərinlikdə temperaturun orta qradienti 3,7-2,3°C/100 metr, "Şahdəniz"-"Bahar" sahəsində 3000-4000 metrdə 1,2°C/100 metr və Türkmənistan sahillərinə kimi 5500-6000 metrdə 2,1°C/100 metr daxilində olması karbohidrogenlərin yataq yaratması ehtimalını təsdiqləyirdi. Bu, bir daha onu göstərir ki, 6000 metr kəsiliş üzrə temperatur 85-135°C arasında dəyişir və 15 kilometrədək intervalda temperatur 185-200°C-ni aşmır. Elmi-nəzəri cəhətdən əsaslandırılıb ki, karbohidrogenlər böyük dərinliklərdə 350-400°C və 200 MP təzyiq şəraitində yataqlar yarada bilər. Cənubi Xəzər hövzəsində kollektor süxurların xüsusiyyətləri 1000 metrdən 3000 metrədək 1,5 dəfə azalıb və dərinlik artdıqca azalma davam edib, 9000 metrdə məsaməlik 12-13 faiz olub ki, bu da karbohidrogenlərin miqrasiyası və toplanması üçün yetərlidir. Ərazidə mövcud olan geodinamik-gərginlik və seysmoaktivlik şəraiti də karbohidrogenlərin miqrasiyasında və yataqların yaranmasında əsas rol oynayıb. Cənubi Xəzər çökəkliyində geodinamik-gərginlik ocaqlarının və zəlzələ hiposentrlərin 5-25 kilometr dərinlik intervalında sürəkli-çatlı və fərqli geobarik şəraitli mühit yaratması karbohidrogenlərin miqrasiyasını sürətləndirir. Beləliklə, göstərilən amillər və elmi-nəzəri dəlillər Cənubi Xəzər çökəkliyində 6-15 kilometr dərinlikdə neft-qaz yataqlarının olması ehtimalını təsdiqləyir və axtarış-kəşfiyyat işlərinin nəticələrinin müsbət olacağına inam yaradırdı.

Azərbaycanın çox zəngin neft-qaz yataqlarının gələcəkdə də kəşf olunacağına inanan Prezident İlham Əliyev tərəfindən hazırda neft sənayesinin gələcək istiqamətlərini müəyyənləşdirən perspektiv tədbirlər həyata keçirilir, Xəzərin ehtiyatları nəzərə alınaraq təbii qazın Avropa bazarlarına çatdırılması üçün Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, İtaliya və gələcəkdə Bolqarıstanadək uzanacaq Cənub Qaz Dəhlizini reallaşması istiqamətində çox mühüm işlər görülür.

"ADDA-nın məzunu"

Sadir Əliyev: "Hər bir addımımızda ölkəmizin maraqlarını qorumalıyıq"

www.seanews.az və Azərbaycan Dövlət Dəniz Akademiyasının birgə layihəsi olan "ADDA-nın məzunu"nda bu dəfə sizi SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Dənizdə insan həyatının mühafizəsi üzrə təlim mərkəzinin müdiri Sadir Əliyevlə yaxından tanış edirik.

Sadir Əliyev 2004-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Dəniz daşımalarının təşkili və idarə olunması" ixtisası üzrə bakalavr və 2007-ci ildə magistratura pillələrini bitirib. Hazırda "Gəmiçilik və su nəqliyyatının istismarı" ixtisası üzrə dissertantura pilləsində təhsilini davam etdirir.

Əmək fəaliyyətinə 2006-cı ilin avqustunda Xəzər Dəniz Neft Donanmasında başlayıb və 2013-cü ilin fevralınadək burada böyük mühəndis-dispetçer işləyib.

2012-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasında pedaqoji fəaliyyətlə məşğul olub.

2013-cü ilin fevralından 2015-ci ilin mayınadək SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsində metodist (dənizçilik üzrə) kimi çalışıb. 2015-ci ilin mayından 2016-cı ilin oktyabrınadək SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Dənizdə insan həyatının mühafizəsi üzrə təlim mərkəzinin müdir müavini olub. Hazırda mərkəzin müdiri olan Sadir Əliyev söhbət zamanı dedi:

-ADDA-nın məzunu olmağımdan qürur duyuram. ADDA tələbələrinin nailiyyətlərini və məzunlarının uğurlarını gördükcə fərəh hissi keçirirəm.

Ölkəmizdə dənizçilik təhsili ilə yanaşı, təlim proseslərinin də mövcud vəziyyəti və getdikcə yeni standartlar və tələblər əsasında formalaşması sevindiricidir. Hədəfimiz düzgün planlaşdırma əsasında dənizçilik və neft-qaz sahəsində çalışan insanlar üçün müasir və innovativ təlim modelini davam etdirmək və daha da təkmilləşdirməkdir. Planlaşdırmada uğursuzluq uğursuzluğu planlaşdırmaqdır, başqa sözlə desək, plansız məqsəd, sadəcə bir arzudur. Gəmi heç vaxt ümidlə idarə olunmadığı kimi şirkət, müəssisə, idarə və yaxud mərkəz də sadəcə ümidlə idarə olunmamalıdır. Təbii ki, hər bir addımımızda çalışdığımız şirkətin və ümumilikdə ölkəmizin maraqlarını və mənafeyini düşünməliyik və daim qorumalıyıq.

"Süleyman Vəzirov" və "Yarenqa" gəmiləri "Abşeron" yatağında borudüzmə işlərinin ikinci mərhələsini tamamlayıb

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) gəmiləri Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Abşeron" qaz-kondensat yatağında boruların döşənməsi üzrə əməliyyatların ikinci mərhələsini də başa çatdırıb.



Bu mərhələdə "Abşeron" rayonu 23 saylı özüllə 57 saylı özül arasında 11 459 metr uzunluğunda və 8 düymlük boru xətti çəkilib.

Növbəti mərhələdə isə "Bulla-dəniz" yatağında 2 saylı Qaz Separator Məntəqəsində borudüzmə işləri görüləcək. Burada 27 km boru xəttinin çəkilməsi nəzərdə tutulur.

Borudüzmə əməliyyatlarına ASCO-nun Xəzər Dəniz Neft Donanmasına aid "Süleyman Vəzirov" borudüzən və "Yarenqa" yedək-təchizat gəmiləri cəlb olunub.

ASCO həmişə olduğu kimi, bu əməliyyatları da sağlamlıq, texniki təhlükəsizlik və ətraf mühitin mühafizəsi tələblərinə uyğun və nəzərdə tutulan vaxtdan tez yerinə yetirib.

Qeyd edək ki, "Abşeron" qaz-kondensat yatağı Xəzər dənizində, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşir. Borudüzmə əməliyyatları isə 8-12 metr dərinlikdə həyata keçirilib.

"Xəzər" Yelkənli Qayıqlar İdman Klubunun yeni qayıqları təkcə göz oxşamır

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "Xəzər" Yelkənli Qayıqlar İdman Klubununun bazası "Optimist" sinfi üzrə 7 yeni qayıqla zənginləşdirilib.



Polşanın "New Blue" şirkətinin istehsalı olan bu qayıqlar beynəlxalq standartlara tam cavab verir. Bu tip qayıqlardan beynəlxalq yarış və reqatalarda istifadə olunur.

"Xəzər" Yelkənli Qayıqlar İdman Klubunun idmançıları yeni qayıqları sınaqdan da keçiriblər. Klubun "Optimist" sinfində yarışan dörd yelkənçisi bu yaxınlarda baş tutacaq Azərbaycan Yelkənli İdman Federasiyasının "Federasiya kuboku" na məhz yeni qayıqlarla yollanacaq.

Məlumat üçün bildirək ki, 2014-cü ildə yaradılan "Xəzər" Yelkənli Qayıqlar İdman Klubu ASCO-nun tərkibində fəaliyyət göstərir. Klubun idmançıları dəfələrlə müxtəlif yerli və beynəlxalq yarışların qalibi olublar. Hazırda klubda 3 məşqçi "Laser" sinfi üzrə 12, "Optimist" sinfi üzrə isə 4 idmançı hazırlayır.

Xəzəryanı dövlətlərlə nəqliyyat əlaqələrinin genişləndirilməsi haqqında qanun layihəsi İran parlamentinə təqdim edilib

İran Prezidenti Həsən Ruhani İran İslam Şurası Məclisinə (parlamentə) "İranın Xəzər dənizi sahilindəki digər dövlətlər ilə nəqliyyat sahəsində əlaqələrinin genişləndirilməsi haqqında" qanun layihəsi təqdim edib.

İran prezidentinin parlamentə təqdim etdiyi yeni qanun layihəsi, İran ilə Azərbaycan, Qazaxıstan, Rusiya və Türkmənistan arasındakı mövcud nəqliyyat, ticarət əlaqələrinin yeni mərhələyə qədəm qoymasını nəzərdə tutub. Yeni qanun qarşılıqlı münasibətlərin daha da yaxşılaşması və iqtisadi əlaqələrin genişlənməsi üçün imkanlar yaradacaq.

Qanuna əsasən ekspert qrupları Xəzəryanı dövlətlərin iqtisadi imkanlarını öyrənib, əlaqələrin zəif inkişaf etdiyi sahələrdəki əməkdaşlığın genişlənməsi üçün təkliflər hazırlayacaqlar.

İran parlamentinin mətbuat xidmətindən verilən məlumata görə, Prezidentin təqdim etdiyi qanun layihəsi deputatlar tərəfindən nəzərdən keçiriləcək və müzakirəyə çıxarılacaq.

Rabil Kətanov

Kalininqraddan Rotterdama gedən gəminin maşın şöbəsində yanğın baş verib

Rusiyalılardan və ukraynalılardan ibarət heyəti olan gəmi Elba çayının Almaniyadan keçən hissəsində qəzaya uğrayıb.

İlkin məlumata görə, "Kelly" yük gəmisinin qəzaya uğraması nəticəsində 1 nəfər ölüb.

Malta bayrağı altında üzən və Kalininqraddan Rotterdama gedən gəminin maşın şöbəsində yanğın baş verib. Gəmidə 11 rusiyalı və 2 ukraynalının olduğu bildirilir. Heyətin daha iki üzvü yaralanıb.

Fəridə Abdullayeva

Azərbaycanla Türkmənistan arasında əməkdaşlıq iqtisadi rifaha, təhlükəsizliyə və mədəni inkişafa xidmət edir

Səfir Həsən Zeynalov: "Hazırda iki ölkə arasında sərnişin daşınması əsas etibarı ilə gəmi-bərələr vasitəsilə həyata keçirilir"

Bu yaxınlarda Türkmənistanda keçirilən Birinci Xəzər İqtisadi Forumu sahilyanı ölkələr arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində sazişlərlə yadda qaldı. Azərbaycan tərəfinin Forumda iştirakının əhəmiyyəti, ümumən tədbirə ev sahibliyi edən Türkmənistanla münasibətləri ilə bağlı Azərbaycanın bu ölkədəki fövqəladə və səlahiyyətli səfiri Həsən Zeynalovla söhbətləşdik.

Eyni etnik kök, mədəniyyət və dinə mənsubluq

- Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun 2017-ci ildə Azərbaycana rəsmi səfərindən və Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci ildə Türkmənistana rəsmi səfərindən sonra ölkələrimiz və xalqlarımız arasında əlaqələr daha da genişlənib. Bu mənada Azərbaycan-Türkmənistan münasibətləri haqda nə deyə bilərsiniz?

- Türkmənistanla əlaqələr Azərbaycanın xarici siyasətinin mühüm, vacib istiqamətlərdən birini təşkil edir. Hər iki ölkə xalqlarının eyni etnik kökə, mədəniyyətə və dinə mənsubluğu, əsrlər boyu dostluq və mehriban qonşuluq şəraitində yaşamaları əlaqələrin inkişafı üçün həm zərurət, həm də sağlam zəmin yaradır. Son illərə nəzər saldıqda ikitərəfli münasibətlərin inkişaf dinamikasını müsbət səciyyələndirmək mümkündür. Hazırda, qarşılıqlı maraq kəsb edən sahələrdə uğurlu əməkdaşlıq edilir, iqtisadi, humanitar, nəqliyyat və digər sahələrdə çox yaxşı nəticələr vardır. Lakin eyni zamanda hesab edirik ki, bu nəticələr hələlik bizim ölkələrin potensialına cavab verən səviyyədə deyil və bu istiqamətdə səyləri qarşılıqlı artırmaq lazımdır.

Bu xüsusda, Türkmənistanın Prezidenti cənab Qurbanqulu Berdiməhəmmədovun 2017-ci ildə ölkəmizə rəsmi səfəri böyük önəm daşıyıb. Bu səfər çərçivəsində Türkmənistan dövlət başçısının Azərbaycan Prezidenti ilə keçirdiyi təkbətək və geniş tərkibli görüşlərdə ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin bütün sahələrdə daha da inkişaf etdirilməsi, genişləndirilməsi və möhkəmləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb. Əməkdaşlığın bütün sahələri üzrə inkişafı üçün böyük potensialın olduğu vurğulanıb və əməkdaşlığın vacib istiqamətləri üzrə 13 saziş imzalanıb. Bundan başqa, dövlət başçılarının imzaladıqları "Azərbaycan Respublikası ilə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"ni xüsusi qeyd etmək istərdim. Bəyannamədə indiki və gələcək birgə fəaliyyətimizin bütün istiqamətləri öz əksini tapıb.

Prezident İlham Əliyevin 21-22 noyabr 2018-ci il tarixində Türkmənistana rəsmi səfəri isə iki ölkə arasında əməkdaşlıq tarixində yeni səhifə açmışdır. Ən yüksək səviyyədə aparılmış müzakirələr nəticəsində əldə olunmuş razılaşmalar və imzalanmış sənədlərin mahiyyəti yaxın gələcəkdə ikitərəfli əməkdaşlığın daha da genişlənəcəyini söyləməyə əsas verir. Səfər çərçivəsində dövlət başçıları tərəfindən birgə bəyanat və nəqliyyat-tranzit, iqtisadi və humanitar sahələr üzrə 20 sənəd imzalanıb. Bu sənədlərin sırasında sərmayələrin qarşılıqlı təşviqi və qorunması, iki ölkənin dəmir yolları, beynəlxalq dəniz limanları və gəmiçilik qurumları arasında əməkdaşlığa dair sazişləri qeyd etmək istərdim. Dövlət başçılarının birgə bəyanatında qardaş ölkələr olan Türkmənistanın və Azərbaycanın bir-birinin suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını qətiyyətlə dəstəklədikləri bir daha təsdiqlənir. Eyni zamanda, birgə bəyanatda ticarət-iqtisadi, nəqliyyat-kommunikasiya, elmi-texniki, mədəni-humanitar və digər sahələrdə dövlətlərarası əlaqələrin inkişafının yüksək dinamikası qeyd edilir. Dövlət başçılarının birgə bəyanatları, eləcə də qarşılıqlı rəsmi səfərləri zamanı imzalanmış digər sazişlər həm Səfirlik olaraq bizdən, həm də aidiyyəti icra strukturlarından iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsinə daha məsuliyyətlə yanaşmağı tələb edir.

Əlaqələrin inkişaf etdirilməsində Azərbaycan ilə Türkmənistan arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın fəaliyyəti də mühüm yer tutur. Ticarət-iqtisadi, kommunikasiya, sənaye, kənd təsərrüfatı, turizm, humanitar və digər sahələrdə əməkdaşlıq, o cümlədən iş adamları arasında təmasların qurulması və qarşılıqlı sərmayə qoyuluşu məsələlərinin həllində komissiyanın rolu böyükdür. Yaxın günlərdə komissiyanın növbəti iclasının keçirilməsi nəzərdə tutulur. Ümumiyyətlə, hesab edirik ki, hökumətlərarası komissiyanın işinin intensivləşdirilməsi vacibdir. Təsadüfi deyil ki, dövlət başçılarının birgə bəyanatında da komissiyanın növbəti iclasının qısa vaxtda keçirilməsi nəzərdə tutulur. Səfirlik də öz növbəsində ümumi işə töhfə vermək üçün mümkün olanları edir, Azərbaycanın iqtisadi imkanları, sərmayə mühiti və perspektivli layihələri barədə məlumatları mütəmadi şəkildə Türkmənistanın aidiyyəti dövlət qurumları və işgüzar dairələri arasında yayır, bu istiqamətdə müvafiq görüşlər keçirir.

- Ölkələrimiz arasında Xəzəryanı ölkələr formatında əməkdaşlıq mövcuddur. Bu çərçivədə hansı işlər görülür?

- Bu əməkdaşlıq çərçivəsində Xəzər dənizində ətraf mühitin və bioloji resursların qorunması, hidrometeorologiya, təhlükəsizlik sahələrində əməkdaşlıq haqqında sazişlər imzalanıb və həmin hüquqi sənədlər çərçivəsində əməkdaşlıq həyata keçirilir. Keçən il "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya"nın və digər əlaqədar vacib sənədlərin imzalanması ilə Xəzər dənizinin sülh, dostluq və əməkdaşlıq dənizi olması istiqamətində böyük addım atılıb.

Əksər beynəlxalq məsələlərdə ölkələrimiz eyni mövqedən çıxış edirlər, hər iki dövlət beynəlxalq və regional təhlükəsizliyin qorunub-saxlanılmasının tərəfdarıdır. Bu, öz növbəsində Mərkəzi Asiya, Qafqaz və Xəzər hövzəsi regionunda siyasi proseslərin cərəyan etməsinə müsbət təsir göstərən bir amildir. Həmçinin, Azərbaycan ilə Türkmənistan arasında beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edilir. Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Qoşulmama Hərəkatı və digər beynəlxalq qurumlarda tərəflər arasında qarşılıqlı anlaşma və dəstək mövcuddur.

- İki ölkə arasında vətəndaşların gediş-gəlişi üçün vizaların sadələşdirilməsi istiqamətində hansı addımlar atılır?

- Xəzər dənizi üzərindən müxtəlif sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi, istər sadə vətəndaşlar, istərsə də işgüzar dairələr arasında sıx təmasların qurulmasında viza rejimi önəmli amildir. Biz indiyədək bu istiqamətdə də zəruri tədbirlər görmüşük və tədbirlərimiz davam edir. Son üç ildə ölkəmizə səfər etmək istəyən Türkmənistan vətəndaşları üçün Səfirlikdə vizaların rəsmiləşdirilməsi işi xeyli sadələşdirilmiş, mövcud olan bütün problemlər aradan qaldırılmışdır. Müraciət edən vətəndaşlara Səfirlikdə rahat şərait yaradılıb. Onlar müvafiq sənədləri təqdim etməklə qısa zamanda vizalarını rəsmiləşdirə bilirlər. Həmçinin, digər konsulluq-hüquq məsələləri ilə bağlı müraciətlər operativ şəkildə həll edilir. Eyni zamanda, Türkmənistan vətəndaşları "ASAN Viza" sistemi vasitəsilə rahat və qısa zamanda elektron viza əldə edə bilirlər. Yaradılmış şəraitin nəticəsidir ki, keçən il 28 min nəfərə yaxın Türkmənistan vətəndaşı ölkəmizə səfər edib. Bu, 2015-ci ilin göstəricisindən on dəfə çoxdur.

Qeyd olunanlar həm də iki ölkənin milli aviaşirkətləri tərəfindən Bakı ilə Aşqabad arasında birbaşa hava reysinin açılmasına şərait yaratmış, hətta zəruri etmişdir. Təcrübə göstərir ki, dövlətlər arasında işgüzar əlaqələrin qurulması, mədəni-humanitar sahədə əməkdaşlığın inkişafının təmin olunması üçün birbaşa hava əlaqəsi vacib amildir. Hazırda iki ölkə arasında sərnişin daşınması əsas etibarı ilə gəmi-bərələr vasitəsilə həyata keçirilir. Bakı-Türkmənbaşı istiqamətində səfər edən vətəndaşların sayında müşahidə olunan kəskin artım birbaşa hava reysinin açılmasını iqtisadi baxımdan səmərəli etmiş, beləliklə, məsələnin müsbət həlli üçün əlverişli zəmin yaranmışdır. Hazırda iki ölkə paytaxtları arasında Lufthansa aviaşirkəti (Almaniya) tərəfindən hava əlaqəsi mövcud olmasına baxmayaraq, biletlər olduqca bahadır. Şirkətdən verilən məlumata görə, bu ilin oktyabr ayından etibarən şirkət sözügedən reysini dayandıracaq. Son illərdə hər iki ölkənin aviaşirkətlərinin imkanları həm yeni reyslərin açılması, həm də gələn təyyarələrin qəbul edilə bilməsi cəhətdən kifayət qədər artmışdır. Səfirlik tərəfindən məsələ ilə bağlı hər iki ölkənin aidiyyəti orqanları qarşısında məsələ qaldırılıb. İnanırıq ki, birgə səylərimizlə yaxın gələcəkdə milli aviaşirkətlərimiz tərəfindən birbaşa hava reysinin açılması mümkün olacaq.

Xəzər dənizi üzərindən təmaslar

- Cənab səfir, Azərbaycan və Türkmənistanın Avropa ilə Asiyanın qovşağında yerləşməsi geoiqtisadi cəhətdən nə vəd edir?

- Bildiyiniz kimi, Qədim İpək Yolunun üzərində yerləşən hər iki ölkədən transkontinental enerji və nəqliyyat dəhlizləri keçir. Həmin dəhlizlər Asiyanı Avropa ilə birləşdirən ən qısa və iqtisadi baxımdan səmərəli marşrutlar hesab olunur. Son dövrdə ölkələrimiz arasında və ümumiyyətlə regionda nəqliyyat sahəsində tərəfdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində konkret əməli addımlar atılıb. Buna Azərbaycan, Türkiyə və Türkmənistanın nəqliyyat qurumları rəhbərlərinin çoxtərəfli görüşlərini, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsini, Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə nəqliyyat və ticarət dəhlizinin yaradılmasını nəzərdə tutan Lapis Lazuli Marşrutunu, "Xəzər dənizi-Qara dəniz" beynəlxalq nəqliyyat marşrutunun yaradılması üzrə görülən işləri misal göstərmək olar. Azərbaycan Respublikası Prezidentinin rəsmi səfəri zamanı imzalanmış sənədlər nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılmasını, Azərbaycan və Türkmənistan ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımaların iştirakçıları üçün viza rejiminin sadələşdirilməsini nəzərdə tutur. Bu isə yalnız iki ölkənin deyil, bu marşrutu istifadə edən bütün ölkələrin daşıyıcılarının problemlərinin həllinə kömək məqsədi daşıyır.

Bununla yanaşı, 2018-ci ilin may ayında Ələtdə və Türkmənbaşıda müasir beynəlxalq dəniz limanlarının istifadəyə verilməsi və digər infrastruktur layihələri Şərq-Qərb istiqamətində yük daşımalarının əhəmiyyətli bir hissəsinin Orta Dəhlizin əsas hissələri olan Azərbaycan və Türkmənistan vasitəsilə daşınmasına şərait yaradacaqdır.

- Bakı-Tbilisi-Qars dəmir yolu xətti Türkmənistan üçün nə dərəcədə önəmlidir?

- Azərbaycan Prezidentinin təşəbbüsü və siyasi iradəsinin məhsulu olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ümumilikdə Avrasiya qitəsi üçün önəmli bir layihədir. Əlbəttə, Asiyanın mərkəzində yerləşən, Azərbaycanın qonşusu və dostu olan Türkmənistan da bu layihənin imkanlarından geniş istifadə edə bilər. Təsadüfi deyil ki, keçən ilin oktyabr ayında layihənin açılış tədbirində Türkmənistanın dəmir yolları naziri də iştirak etmişdir. Bu xətt Türkmənistana minimum xərclə öz mallarını Avropa bazarlarına çıxarmağa, Avropa bazarlarından idxal olunan malları ölkəyə gətirməyə, eləcə də digər ölkə mallarının tranzitindən gəlir əldə etməyə imkan verəcək. Xüsusilə qeyd etmək istərdim ki, bu layihə üzrə hərəkət edən yüklərin Xəzər dənizini keçərkən vaqonlardan endirilib-mindirilməsinə ehtiyac olmur. Belə ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin xüsusi gəmi-bərələri qatarları Ələt limanından Türkmənbaşı limanına və geriyə yüklü və ya boş şəkildə keçirmək imkanına malikdirlər. Bu da vaxt və xərclərin qənaətinə, marşrutun səmərəliliyinə birbaşa təsir edir.

- "Lapis Lazuli Marşrutu"na Azərbaycanın qoşulmasından nə gözləmək olar?

- Azərbaycan "Lapis Lazuli Marşrutu"na qoşulmuş yox, bu layihənin yaranmasında bilavasitə iştirak etmiş ölkədir. Eyni zamanda, vurğulamaq lazımdır ki, ölkəmiz bu layihənin önəmli və əvəzsiz həlqəsini təşkil edir. Burada iştirak etməklə ölkəmiz öz tranzit imkanlarını və rəqabət üstünlüklərini daha da artıracaqdır. Əslində bu layihəni Azərbaycanın iştirakçısı olduğu TRASEKA-nın – Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizinin bir hissəsi də hesab etmək olar. Üstəlik burada Əfqanıstan da iştirak edir. Qeyd olunan layihə həm də Türkmənistan mallarının Avropa, Azərbaycan mallarının isə Asiya bazarlarına daha rahat çıxmasına şərait yaradacaqdır. Artıq bu marşrut üzrə yüklər göndərilməkdədir. Yeri gəlmişkən, Səfirlik olaraq həm bu, həm də digər marşrut üzrə yük daşıyıcılarının viza məsələlərinin qısa zamanda həll edilməsi üçün xüsusi yanaşma tətbiq edilməkdədir.

- İki ölkə arasında dəniz ticarət gəmiçiliyi sahəsində münasibətlər haqda nə deyə bilərsiniz?

- Ölkələrimiz arasında nəqliyyat və ticarət sahəsində əlaqələr, demək olar ki, bütün təmaslar Xəzər dənizi üzərindən qurulduğundan, qeyd etdiyiniz sahə ikitərəfli əməkdaşlığın vacib istiqaməti kimi səciyyələndirilir. Dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlığın genişləndirilməsi məsələsi son illər ərzində tərəflər arasında aparılmış müzakirələrin əsas xəttini təşkil etmiş, istər Türkmənistan Prezidentinin ölkəmizə, istərsə Azərbaycan Respublikası Prezidentinin Türkmənistana rəsmi səfərləri zamanı bu sahəyə xüsusi diqqət ayrılmışdır. Təsadüfü deyil ki, Prezident İlham Əliyevin Türkmənistana rəsmi səfəri çərçivəsində imzalanmış sənədlərin əksəriyyəti dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlığın inkişafına xidmət edəcəkdir. Vurğulamaq istərdim ki, bu məqsədə nail olmaq üçün hər cür şərait, zəruri infrastruktur artıq mövcuddur. Bura, yuxarıda qeyd olunduğu kimi, Ələtdə və Türkmənbaşıda bu ilin may ayında istifadəyə verilmiş yeni beynəlxalq dəniz limanlarını, tərəflərin malik olduqları müxtəlif təyinatlı müasir gəmi və bərələri, habelə daşınma prosedurlarının sadələşdirilməsini aid etmək olar. Həmçinin nəzərə alsaq ki, dəniz ticarət gəmiçiliyi təkcə Azərbaycan və Türkmənistan arasında deyil, ölkələrimizin əlverişli coğrafi mövqeləri səbəbindən digər ölkələri də əhatə edəcəkdir, bu sahənin perspektivli olması şübhə doğurmur.

- Azərbaycanla Türkmənistan arasında dostluq əlaqələrinin Mərkəzi Asiya, Xəzər, Qafqaz regionu üçün əhəmiyyəti haqqında eşitmək də maraqlı olar.

- Azərbaycanla Türkmənistan arasında dostluq əlaqələri Mərkəzi Asiya, Xəzər, Qafqaz regionu üçün birbaşa əhəmiyyət daşıyır. Belə ki, Mərkəzi Asiyanı Qafqazla birləşdirən ən qısa və əlverişli yol Xəzər dənizi vasitəsi ilə Türkmənistandan və Azərbaycandan keçir. Beləliklə, bu ölkələr arasındakı dostluq münasibətləri sözügedən marşrutu istifadə edən region ölkələrinin yüklərinin rahatlıqla dünya bazarına ixrac edilməsinə, eləcə idxal mallarının ən qısa müddətdə və ən ucuz yolla daşınmasına imkan yaradır. Bu isə ölkələrin iqtisadiyyatına və əhalinin rifahına birbaşa təsir edən amil kimi özünü göstərir. İki ölkə arasındakı dostluq münasibətləri, eləcə də bütövlükdə Xəzər hövzəsində dostluq, qarşılıqlı anlaşma mühitinin möhkəmlənməsinə öz töhfəsini verir.

-Türkmənistan və Azərbaycan qlobal və regional təhlükəsizliyin təmin edilməsi, iri enerji və nəqliyyat layihələrinin reallaşdırılması kimi sahələrdə əməkdaşlıq edir. Bu barədə fikriniz?

- Məlumdur ki, müasir dünyada sabitlik və təhlükəsizlik təmin olunmadan hər hansı inkişafdan, iqtisadi əməkdaşlıqdan danışmaq olmaz. Azərbaycan Respublikası ilə Türkmənistan arasındakı münasibətlərin sabit və etibarlı olması regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsində əsas faktorlardan biridir.

Bu məsələ, dövlət başçılarının birgə bəyanatında da öz əksini tapmış, tərəflər beynəlxalq terrorizm, ekstremizm, qeyri-qanuni miqrasiya, narkotik vasitələrin və ya psixotrop maddələrin qeyri-qanuni dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq və beynəlxalq təhlükəsizliyin digər çağırış və təhdidləri ilə həm ikitərəfli səviyyədə, həm də beynəlxalq strukturlar çərçivəsində mübarizədə əməkdaşlığın bundan sonra da inkişafının zəruriliyini qeyd etmişlər.

İri enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi sahəsində əməkdaşlığa gəldikdə isə, ölkələrimizin tutduqları coğrafi mövqe və malik olduqları zəngin karbohidrogen yataqları bu prosesi zəruri və qaçılmaz etmişdir.

Elm, təhsil və mədəni sahələrdə əməkdaşlıq

- İki dövlət arasında elm, təhsil və mədəni münasibətlər hansı səviyyədədir?

- Ölkələrimiz arasında həmçinin elm, təhsil və mədəni sahələrdə də əməkdaşlıq edilir. Hər iki ölkənin ali təhsil və elmlər akademiyaları arasında işgüzar təmaslar mövcuddur. Azərbaycan Prezidentinin 2018-ci ildə Türkmənistana rəsmi səfəri çərçivəsində imzalanmış sənədlərin sırasında elmlər akademiyaları, ali təhsil müəssisələri arasında əməkdaşlıq haqqında sənədlər də yer alıb. Misal üçün, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində "ADA" Universiteti ilə Türkmənistan Xarici İşlər Nazirliyinin Beynəlxalq Münasibətlər İnstitutu arasında Anlaşma Memorandumu və Türkmənistanın Humanitar Elmlər və İnkişaf üzrə Beynəlxalq Universiteti arasında əməkdaşlıq haqqında Saziş imzalanıb.

Səfirlik tərəfindən aparılan işlər nəticəsində Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan türkmənistanlı tələbələrin sayı son illərdə dəfələrlə artıb. Son illərdə ölkəmizdə keçirilən müxtəlif mədəni-humanitar tədbirlərdə, o cümlədən Bakı Humanitar Forumu, BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu, IV Bakı Beynəlxalq Teatr Konfransı və digər beynəlxalq tədbirlərdə Türkmənistan nümayəndələri yaxından iştirak ediblər. Yeri gəlmişkən qeyd edim ki, böyük türkmən şairi Məhtimqulu Fəraqinin nadir əlyazması Azərbaycanda tapılmış, bu əlyazma türkmən mütəxəssisləri ilə birlikdə və Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəylinin elmi redaktəsi ilə Azərbaycan, türkmən və ərəb dillərində nəfis şəkildə nəşr olunmuşdur. 2016-cı ilin aprel ayında Bakıda kitabın təqdimatı keçirilmiş və bu mərasimdə Türkmənistan Elmlər Akademiyasının prezidenti iştirak etmişdir. Bu hadisəni eyni mədəni dəyərləri bölüşən Azərbaycan və Türkmən xalqları arasında əlaqələrin inkişafının təzahürü kimi səciyyələndirmək olar.

İki dövlət arasında əməkdaşlığın inkişaf etdirilməsi, xüsusən bu ölkələrin xalqlarını bir-birinə tanıtmaq, onları daha da yaxın etmək məsələlərində mədəniyyət günlərinin təşkilinin əhəmiyyəti böyükdür. Türkmənistanda Azərbaycan mədəniyyətinə, incəsənətinə, o cümlədən musiqi, film, xalçaçılıq sənətinə, eləcə də Azərbaycan mətbəxinə böyük maraq və sevgi var. Buna görədir ki, yerli əhalidən vaxtaşırı Azərbaycan mədəniyyəti günlərinin, film həftəsinin, tanınmış sənətkarların konsertlərinin, xalça və rəsm sərgilərinin, kulinariya təqdimatlarının keçirilməsinə dair müraciətlər daxil olur. Hesab edirik ki, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi gələn il bu tədbirlərdən birinin və ya bir neçəsinin Türkmənistanda keçirilməsi üçün lazımi kömək göstərəcək. Yeri gəlmişkən, bu ilin fevralında Bakıda türkmən xalçalarının və zərgərlik məmulatlarının sərgisi təşkil olunub.

Xəzəryanı ölkələrin əməkdaşlığı

- Türkmənistanda keçirilən Birinci Xəzər İqtisadi Forumunun Azərbaycan üçün əhəmiyyətini necə dəyərləndirirsiniz?

- Bu forum dediyiniz kimi ilk dəfə keçirilir. İlk toplantısının Türkmənistanda keçirilməsinin səbəbi isə Türkmənistanın dövlət başçısının təşəbbüsü ilə baş tutması olmuşdur. Belə ki, bu təşəbbüs bir il əvvəl Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın da imzalandığı Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə toplantısında irəli sürülmüş və digər dövlət başçıları tərəfindən dəstəklənmişdir. Xəzər İqtisadi Forumu iqtisadi əməkdaşlıq üçün yeni bir platformadır və hesab edirəm ki, kifayət qədər səmərəli platformadır. Belə ki, Xəzəryanı ölkələr böyük iqtisadi potensiala malik ölkələr olmaqla yanaşı, region özü də Avropa və Asiyanın qovşağı hesab edilir. Xəzəryanı ölkələrin bu platforma çərçivəsində iqtisadi əməkdaşlığı yalnız bu ölkələr üçün deyil, həm də ətraf ölkələr üçün yeni nəqliyyat və ticarət imkanları təqdim edə bilər. Bu çərçivədə Azərbaycana xarici sərmayələrin cəlb edilməsi, eləcə də Azərbaycan şirkətlərinin Xəzəryanı ölkələrdə yeni biznes imkanları baxımından forumu olduqca faydalı görürəm. Təsadüfi deyil ki, birinci toplantısı olmasına baxmayaraq, bütün Xəzəryanı ölkələr forumda hökumət başçıları səviyyəsində böyük nümayəndə heyətləri ilə iştirak etdilər. Hətta, Xəzəryanı olmayan daha iki ölkənin – Özbəkistanın və Bolqarıstanın baş nazirləri də forumda iştirak etdilər. Ölkəmiz forum çərçivəsində təşkil olunmuş Xəzər İnnovasiya Texnologiyaları Sərgisində milli pavilyonla iştirak etdi.

- Qarşıda iki ölkə arasında münasibətlərin daha da möhkəmlənəsi üçün hansı planlar var?

- Qarşıda duran planlar məlumdur: dövlət başçılarının səfərləri zamanı əldə olunmuş razılaşmaların, imzalanmış sənədlərin icrası və Azərbaycan ilə Türkmənistan dövlətləri və xalqları arasında əlaqələrin, əməkdaşlığın yeni mərhələlərinin, üfüqlərinin müəyyən edilməsi. Hesab edirəm ki, bu istiqamətdə görülməli çox işlər var. İlk növbədə əməkdaşlığı ölkələrimizin potensialına cavab verəcək səviyyəyə çatdırmaq, daha sonra isə ölkələrimizin yerləşdikləri Qafqaz və Mərkəzi Asiya regionlarının, nəhayət Avropa və Asiya qitələrinin nəqliyyat mərkəzinə çevirmək hədəflərinə nail olmalıyıq. Bizim ölkələrimiz arasındakı əməkdaşlıq yalnız iqtisadi rifaha, təhlükəsizliyə və mədəni inkişafa xidmət edir.

Təranə Məhərrəmova

ASCO-nun gəmiləri "Pirşağı Tullantı Sutəmizləyici Qurğusu"nun tikintisi üzrə işlərini uğurla başa çatdırıblar

Azərbaycan hökuməti və Koreya İxrac-İdxal Bankının birgə maliyyələşdirdiyi Azərbaycanda yeni texnologiyalara əsaslanan ilk müasir "Pirşağı Tullantı Sutəmizləyici Qurğusu"nun tikintisi üzrə işlərin 90 faizdən çoxu yerinə yetirilib.

Pirşağı tullantı sutəmizləyici qurğusunun çıxış xəttinin 400 metrlik hissəsi quru, 1300 metrlik hissəsi isə dənizdə quraşdırılıb. Bütün bunlar nəzərə alınaraq əvvəlcədən dənizin dibi ilə marşrut müəyyənləşdirilib və ASCO-nun ixtisaslaşmış gəmiləri ilə dibdərinləşdirmə işləri aparılıb. Gəmilər işlərini uğurla başa çatdırıblar.

Dibdərinləşdirmə işləri "Mühəndis B. Məmmədov" torpaqqazan, "Bakinskaya-3", "Bakinskaya-5" və "Bakinskaya-6" torpaqdaşıyan gəmiləri ilə yerinə yetirilib. Bundan əlavə, layihəyə "Abşeronskaya-5" yedək-lövbərdaşıyan və "Orion-12" dalğıc-dibölçən gəmiləri də cəlb edilib.

Pirşağı qazma ərazisində çıxarılan ümumi həcm 216 650 m3 təşkil edir.

Qazılan ərazidə "Zülfü Hacıyev" kran gəmisi ilə istiqamətləndirici svay vurulub və 1630 metr uzunluğunda, diametri 1620 x 14mm olan borular Hövsandan Pirşağı ərazisinə gətirilərək ərazidə yerləşdirilib. Bu prosesdə 1 ədəd "Nefteqaz" tipli, 2 ədəd "Qaradağ" tipli, 3 ədəd "BMK" tipli, 1 ədəd "Orion" tipli və 1 ədəd "SOCAR-1" tipli gəmilər iştirak ediblər.

Kompleks Abşeron yarımadasının şimal-şərq hissəsində böyük bir ərazidə yaranan tullantı sularının birbaşa Xəzər dənizinə axıdılmasının qarşısını almağa imkan yaradacaq. Kürdəxanı, Pirşağı, Maştağa, Bilgəh, Nardaran, Məhəmmədi, Digah, Mehdiabad, Goradil, Fatmayi və Novxanı qəsəbələrində yaranan tullantı suları bu kompleksdə təmizlənərək kənarlaşdırılacaq. Bu layihə Xəzər dənizinin ekoloji təhlükəsizliyinin qorunması baxımından xüsusi əhəmiyyət daşıyır.

“Azərbaycan daim inkişaf etməkdə olan nəqliyyat dəhlizində çox vacib geosiyasi mövqedədir”

İsveçrə Konfederasiyasının Azərbaycana və Türkmənistana təyin olunmuş yeni fövqəladə və səlahiyyətli səfiri xanım Muriel Peneveyre yeni Bakı Limanı ilə tanış olub.

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin məlumatına görə, limanının baş direktoru Taleh Ziyadov qonağa bildirib ki, bu gün limanda tam avtomatlaşdırılmış və müasir standartlara uyğun texnoloji həllər tətbiq olunur. Avtomatlaşdırmanın nəticəsi olaraq artıq həm limanda çalışan şəxslər, həm də yük sahibləri onlayn olaraq yüklərin statusu və harada olduğu ilə bağlı məlumatları daha asan və tez bir yolla əldə edə bilirlər.

Eyni zamanda, baş direktor qeyd edib ki, ölkəmizin “Şimal-Cənub” və “Şərq-Qərb” beynəlxalq nəqliyyat dəhlizlərində yerləşməsi liman üçün çoxşaxəli tranzit potensialı yaradır və bu da öz növbəsində, Xəzər dənizi vasitəsilə sürətli keçidini təmin etməyə imkan verir.

Yeni Bakı Limanında yaradılan infrastrukturla tanış olan səfir M.Peneveyre də öz növbəsində deyib ki, Azərbaycan daim inkişaf etməkdə olan nəqliyyat dəhlizində çox vacib geosiyasi mövqedədir, Avropa və Asiyanı bir-biri ilə bağlayan mühüm nəqliyyat dəhlizi və gözəçarpan inkişaf strategiyası ilə həm nəqliyyat, həm də logistika qovşağı kimi çox mühüm rola malikdir.

ABŞ İranın dənizçiliklə bağlı 16 müəssisəsini sanksiyalar siyahısına əlavə edib

ABŞ İrana qarşı yeni sanksiyalar tətbiq etdiyini bildirib.

ABŞ İranın dənizçiliklə bağlı 16 müəssisəsinin, keçmiş neft naziri ilə birgə 10 nəfər vəzifəli şəxsin və neft tankerləri də daxil olmaqla, 11 gəmisinin adını sanksiyalar siyahısına əlavə edib.

İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərif ABŞ-ın bu addımını şantaj kimi qiymətləndirib.

Rabil Kətanov

U N U T S A Q , U N U D U L A R I Q

Dənizdə üzəndə də, sahildə işləyəndə də adı həmişə hörmətlə çəkilib

Mirzəağa Çəfər oğlu Xəlilov 1929-cu il sentyabrın 10-da Bakının Mərdəkan kəndində qulluqçu ailəsində dünyaya gəlib.

1946-cı ildə yeddinci sinfi bitirərək Bakı Dəniz Yolları Məktəbinə daxil olub və 1950-ci ildə bu təhsil ocağını “2-ci dərəcəli gəmi mexaniki” diplomu ilə bitirib. Bundan sonra gənc Mirzəağa kiçik mexanik vəzifəsində “Xəzərdonanma”da əmək fəaliyyətinə başlayıb. Səfərdən-səfərə püxtələşib, bacarığı, əməksevərliyi və məsuliyyəti ilə seçilib. 1954-cü ilin may ayından 1958-ci ilin aprelinədək müxtəlif gəmilərin maşın komandasına başçılıq edib. Peşəsinin sirlərinə dərindən bələd olan Mirzəağa Xəlilov çiyninə düşən vəzifəsinin öhdəsindən həmişə layiqincə gəlib. Lakin sonradan ailə vəziyyətinə görə, müvəqqəti sahil işinə keçib. “Paris Kommunası” adına Gəmi Təmiri Zavodunun Mexaniki sexində Texniki nəzarət şöbəsinin (OTK) ustası olanda da, 1959-cu ilin mayından 1960-cı ilin iyununadək zavodun Texniki şöbəsində böyük mühəndis-texnoloq işləyəndə də adı hörmətlə çəkilib.

1960-cı ilin iyunundan Mirzəağa Xəlilov yenidən üzücü heyətə qayıdaraq Xəzər Dəniz Gəmiçiliyinin gəmilərində fəaliyyətini davam etdirib. Dərin biliyə və zəngin iş təcrübəsinə malik olan böyük mexaniki iki il sonra uzaq səfərlərə çıxan gəmilərdə işləməyə göndəriblər.

Peşəsinin mahir ustası olan Mirzəağa Xəlilov 1970-ci ildə “Rəşadətli əməyə görə” medalına, 1981-ci ildə “Dəniz Donanmasının Fəxri işçisi” adına layiq görülüb. 1983-cü ildə böyük mexanik kimi “20 il qəzasız işə görə” döş nişanı ilə təltif edilib, 1985-ci ildən etibarən “Əmək veteranı” olub.

Mirzəağa Xəlilov 1987-ci il iyunun 24-də 58 yaşında haqq dünyasına qovuşub.

Sevda Abdullayeva

Gəmidə rekord miqdarda narkotik maddə aşkarlanıb

Böyük Britaniyanın hüquq-mühafizə orqanları rekord miqdarda narkotik maddə heroin ələ keçiriblər.

“RİA Novosti” xəbər verir ki, Felikstouv limanında "MV Gibraltar" konteynerində müsadirə edilən 1,3 ton narkotik vasitə dəsmal və xalatların içərisində olub. Narkotiklərin ümumi bazar qiyməti 120 milyon funt sterlinqdən çoxdur.

Məlumata görə, hüquq-mühafizə orqanları əvvəlcədən narkotik daşıyan gəminin Antverpenə yollanacağını və Böyük Britaniya adasında isə müvəqqəti dayanacağını müəyyən ediblər.

Su Nəqliyyatında Polis İdarəsi xidməti vəzifələrini əzmlə və yüksək səviyyədə yerinə yetirir

Bir əsrlik tarixi yola imza atan Azərbaycan polisi ötən müddətdə cinayətkarlığa qarşı fəal mübarizə aparmaqla yanaşı, öz vəzifəsini yerinə yetirərkən irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən asılı olmayaraq, bütün şəxslərin hüquqlarını və qanuni mənafelərini hüquqa zidd əməllərdən qoruyub və bu gün də işini şərəf və ləyaqətlə yerinə yetirir. Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev deyirdi: “İndi bizim demokratik idealların olduğu və möhkəmləndiyi müstəqil dövlətimiz, bütün xalq tərəfindən qəbul edilmiş konstitusiyamız, onların keşiyində duran mətinləşmiş, o cümlədən dövlətin əsas sütunlarından olan mübariz polisimiz var”.

Zaman və şərait dəyişsə də, polisin əsas vəzifəsi dəyişməz olaraq qalır: cinayətkarlıqla mübarizə, əhalinin əmin-amanlığının, asayişin qorunması və qanunun aliliyinin təminidir. Azərbaycan polisinin vacib struktur hissəsi olan Daxili İşlər Nazirliyinin (DİN) Nəqliyyatda Baş Polis İdarəsinin Su Nəqliyyatında Polis İdarəsi cinayətkarlıqla mübarizədə ümumi vəzifələri yerinə yetirsə də, onun fəaliyyəti spesifik xarakter daşıyır.

Hazırda Su Nəqliyyatında Polis İdarəsinin strukturunda 1 xətt polis şöbəsi, 3 xətt polis bölməsi, brakonyerlərə qarşı mübarizə aparan 6 xətt polis məntəqəsi və digər məntəqələr fəaliyyət göstərir. Ümumilikdə Su Nəqliyyatında Polis İdarəsi ölkənin bütün ərazilərini əhatə etsə də, onun da xidməti ərazisinin sərhədləri var və bu idarənin əməkdaşları fəaliyyətini bu sərhədlər daxilində aparırlar. Onlar Azərbaycan ərazisində su səthində baş verə bilən hər hansı təxribatın, cinayət hadisəsinin, qanunsuz balıq ovunun, su sahəsinin çirklənməsinin, qanunsuz ov aparılmasının qarşısının alınmasında sayıqlığını bir an da olsun itirmirlər.

Nəqliyyat polisinin tarixi 1918-ci ildən – müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi vaxtdan başlayır. Həyat əhəmiyyətli bu nəqliyyat-kommunikasiya sistemi vətəndaşların ən çox hərəkət etdikləri, cəmləşdikləri yerdir və əhaliyə genişmiqyaslı xidmətin göstərildiyi böyük kompleksdir. Su, hava və dəmir yollarından milyonlarla insan istifadə edir və burada qiymətli, strateji yüklər daşınır. Bundan başqa, Azərbaycanın mühüm coğrafi mövqeyi, tarixi "İpək yolu"nun bərpası, ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşməsi və s. də bu sistemin əhəmiyyətini xeyli dərəcədə artırır.

Ən çətin məqamda xilaskarlıq missiyasını yerinə yetirənlər

Demək olar ki, hər gün internet saytlarında peşəsinə sadiqliyi ilə seçilən, işinin məsuliyyətini anlayan, dövlətə və dövlətçiliyinə xidmət edən, insanlara kömək göstərən, cinayətkarlara qarşı amansız mübarizə aparan polislərimiz haqqında müxtəlif yazılara rast gəlirik. Bu sırada su polisinin də öz payı var. Əgər belə olmasaydı “Su polisi əməkdaşları uğurlu əməliyyat keçiriblər”, “Su polisi balıqçının həyatını xilas etdi”, “İntihar etmək istəyən şəxsin həyatı su polisi əməkdaşları tərəfindən xilas olunub”, “Dənizdə batmaq təhlükəsi ilə üzləşən şəxs su polisi tərəfindən xilas edilib” və bu kimi digər sərlövhəli xəbərlərə rast gəlməzdik.

Su Nəqliyyatında Polis İdarəsinin gördüyü işlərdən bir neçəsini xatırlatmaq kifayət edər ki, dediklərimizin həqiqət olduğuna şübhə qalmasın. İdarə əməkdaşlarının peşəkarlığı və ictimai asayişin keşiyində ayıq-sayıq dayanması insan ölümü ilə nəticələnə biləcək neçə-neçə faciənin qarşısının vaxtında alınmasını təmin edib. Elə bu günlərdə Bakı Dəniz Vağzalında naməlum şəxsin özünü şübhəli aparması və qeyri-adekvat hərəkətləri ərazidə xidmətdə olan su polislərinin diqqətini cəlb edib. Həmin şəxs intihar etmək məqsədilə özünü dənizə atmaq istəyən zaman onun bu cəhdinin qarşısı alınıb. Polis əməkdaşları intihara cəhd edən şəxslə profilaktiki söhbətlər apararaq onu bu fikrindən daşındıra biliblər. Daha bir misal: DİN-in 102 - Zəng Mərkəzi Xidmətinə Səbail rayonunun Bayıl qəsəbəsi ərazisində dənizdə güclü küləyin əsməsi nəticəsində qayığın aşması və 2 balıqçının adada köməksiz vəziyyətdə qalması barədə məlumat daxil olub. Müraciətlə əlaqədar təxirəsalınmaz tədbirlərlə Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları hadisə yerinə gələrək S.Hənifézadəni və H.Hüseynovu xilas edərək sahilə çıxarıblar. Təbii ki, bu faktlar su polisinin fəaliyyətinə dair bir neçə epizodla bağlıdır. Amma onların işi təkcə bununla bitmir...

Cinayətkarlara qarşı hər zaman amansız olanlar

Gücləndirilmiş iş rejimində çalışan Su Nəqliyyatında Polis İdarəsi, həmçinin dənizdə qanunsuz fəaliyyət, çirkli suların axıdılması və icazəsiz körpü salınması hallarına qarşı qətiyyətlə mübarizə aparır, bu məqsədlə reydləri fasiləsiz davam etdirir. Bununla da balıqları antisanitariya şəraitində hisə verərərək insanların sağlamlığını təhlükə altında qoyan, əhalini zəhərləyən, həmçinin orqanizmdə ciddi fəsadların yaranmasına səbəb olan elektrik avadanlığı ilə tutulan balıqları və adı “Qırmızı kitab”a düşmüş quşları ovlayan şəxslər müəyyən edilərək qanunla nəzərdə tutulmuş qaydada cəzalandırılır. İdarənin əməkdaşları bu əməlləri törədən şəxslərlə profilaktiki və maarifləndirici söhbətlər apararaq belə halların yolverilməz olduğunu izah edirlər.

Eyni amanda, Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları hər zaman balıq mövsümünün başlanması ilə əlaqədar Xəzər dənizində qanunsuz balıq ovu ilə məşğul olanlara qarşı reydlər keçirirlər. Təkcə bir faktı qeyd etməklə onların gördüyü işin miqyasını və məsuliyyətini anlamaq kifayətdir. Bu günlərdə idarənin Lənkəran Xətt Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yerli sakin Elmar Abdullayev Sütəmurdov çayının Xəzərə dənizinə tökülən hissəsində, sahildə saxlanılıb. Baxış zamanı ondan 4 kiloqram 260 qram narkotik vasitə hesab edilən tiryək aşkar edilərək götürülüb. Faktla bağlı Su Nəqliyyatında Polis İdarəsində araşdırma aparılır. İdarə əməkdaşlarının belə uğurlu əməliyyatları çoxdur və onların hər biri haqqında geniş yazılar təqdim etmək olar. Bütün bunlar bir daha göstərir ki, idarə əməkdaşları onlara tapşırılan işin öhdəsindən əsl peşəkarlıqla gəlir və cinayətkarlığa qarşı hər zaman amansız mövqe sərgiləyirlər.

Beynəlxalq festival və yarışlar zamanı təhlükəsizliyin təmin olunmasında yüksək peşəkarlıq

Su polisi əməkdaşları ölkəmizdə keçirilən beynəlxalq festival və mötəbər yarışlar zamanı təhlükəsizliyin təmin olunmasında yüksək peşəkarlıq və fədakarlıq göstərirlər. Belə turnirlərdən biri bu günlərdə Xəzər dənizinin sahilindəki ən gözəl istirahət mərkəzlərinin birində - “Sea Breeze Resort”da keçirilən "Jara 2019" Dördüncü Beynəlxalq Musiqi Festivalı oldu. Qeyd edək ki, bu il festivalda dörd gün ərzində 200-dən çox ifaçı çıxış edib. Hər bir tədbirdə olduğu kimi, “Jara”da da festival iştirakçılarının və qonaqlarının təhlükəsizliyi daim diqqət mərkəzində saxlanılıb. Bu işə cavabdeh qurumlardan biri də Su Nəqliyyatında Polis İdarəsi olub. Festival Xəzər sahilindəki istirahət mərkəzindən birində təşkil edildiyindən idarənin əməkdaşlarının üzərinə daha böyük məsuliyyət düşüb. Buraya gələn məşhur incəsənət xadimləri, eləcə də onların çoxsaylı pərəstişkarları təkcə işlərini oxumaq və dinləməklə bitmiş hesab etməyiblər. Eyni zamanda, onlar isti yay günlərinin dadını çıxarmaq üçün dənizə də üz tutublar. Məhz burada onların istirahətinə cavabdeh qurum Su Nəqliyyatında Polis İdarəsi olub. İdarənin 10-dan çox əməkdaşı növbəli iş rejimi əsasında əraziyə tam nəzarət edib və bu iş yüksək səviyyədə həyata keçirilib.

Növbəti mühüm tədbirə cavabdehlik isə cari il aprelin 26-28-də Bakıda keçirilən Formula 1 Azərbaycan Qran-Prisi günlərində olub. Yarış günlərində Bakı Dəniz Vağzalının ərazisində yaradılmış yanacaq anbarının mühafizəyə götürülməsi Su Nəqliyyatında Polis İdarəsi tərəfindən təmin edilib. Yarışlar zamanı idarənin xidməti ərazisində ictimai qaydanın qorunması, cinayətlərin qarşısının alınması, ərazinin mühafizəsi tədbirlərinin təmini üzrə xidmətə cəlb olunacaq qüvvələrin plan-hesabı hazırlanıb, “Yaxt Klub”, "Baku Crystal Hall” və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı istiqamətində su hövzəsində təhlükəsizliyin təmini üçün qayıqlar vasitəsilə iki növbəli patrul xidməti təşkil edilib, Bakı buxtasında gəzinti gəmisinin müşayiəti, “Yaxt Klub”un giriş qapısı üçün əməkdaşların ayrılması təmin olunub. Bakı Olimpiya Stadionunda keçirilən UEFA Avropa Liqasının final qarşılaşması ilə əlaqədar Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları tərəfindən ictimai asayişin mühafizəsi təşkil edilib. Yüksək səviyyədə keçirilmiş tədbirlərin nəticəsində Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən idarənin bir qrup əməkdaşı mükafatlandırılıb.

Cinayətlərin açılması 100 faiz təmin edilib

Su Nəqliyyatında Polis İdarəsinin cari ilin birinci yarısında cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində gördüyü işləri gözdən keçirərkən bu qurumun nə qədər böyük və vacib işlər gördüyünün bir daha şahidi oluruq. Belə ki, qurum cari ilin altı ayında 100 fakt qeydə alıb və cinayətlərin açılması 100 faiz təmin edilib. Bu dövrdə silah və döyüş sursatlarının aşkar edilməsi ilə bağlı 6 fakt qeydə alınıb. Cinayət və inzibati xəta törədən şəxslərdən 8 ov silahı, onlara aid 287 patron, 6 soyuq silah götürülüb.

İdarə üzrə son illərdə Xəzər dənizində itkin düşmüş 62 nəfər barəsində tanınma kartları tərtib olunub, DİN-in Baş Əməliyyat və Statistik İnformasiya İdarəsində (BƏSİİ) uçota qoyulub. Onlardan 30 nəfəri müəyyən edilərək sahiblərinə təhvil verilib. 2015-ci il dekabrın 4-də Xəzər dənizində itkin düşmüş 30 nəfərdən 7-si ilk günlərdə tapılaraq yaxınlarına təhvil verilib, “Neft daşları” NQÇİ-nin 3 əməkdaşının və “Günəşli” platformasında baş vermiş yanğın nəticəsində Xəzər dənizində itkin düşmüş 23 nəfərin doğmalarından DNT nümunələri götürülüb, məlumat bankına əlavə edilməsi üçün DİN-in Kriminalistik Tədqiqatlar İdarəsinə göndərilib. Sonrakı günlərdə itkin düşmüş neftçilərdən daha 7 nəfəri tapılaraq, şəxsiyyəti məhz həmin DNT analizlərinin köməyi ilə müəyyən edilərək yaxınlarına təhvil verilib. İtkin düşmüş 13 balıqçının və 19 neftçinin barəsində də tanınma kartları tərtib edilərək DİN BƏSİİ-də qeydiyyata alınıb.

Hesabat dövründə istintaqdan yayınan və axtarışda olan bir nəfər yaxalanaraq istintaq orqanına, ərazi polis orqanları tərəfindən axtarılan beş nəfər sərhəd-keçid məntəqəsində saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Bu ilin altı ayında Qazaxıstan və Türkmənistan respublikalarından Dübəndi terminalına 22, Bakı (Azpetrol) terminalına 6, Səngəçal terminalına 215 olmaqla, cəmi 243 tanker vasitəsilə 2 milyon 270 min 38 ton neft və neft məhsulları, 1560 gəmi (bərə) vasitəsilə 1 milyon 994 min 880 ton müxtəlif yüklər və 19 min 318 sərnişin daşınarkən, yüklərin və sərnişinlərin təhlükəsizliyi, ictimai asayişin qorunması polis əməkdaşları tərəfindən təmin edilib.

İctimai təhlükəsizlik bölməsinin əməkdaşları tərəfindən Xəzər dənizi akvatoriyasında ixrac neft və qaz boru kəmərlərinə və onların infrastruktur obyektlərinə qarşı yönəlmiş terror və təxribat aktlarının qarşısını almaq məqsədilə bir sıra profilaktik tədbirlər həyata keçirilib. Belə ki, ixrac neft və qaz boru kəmərlərinin keçdiyi ərazilər müəyyən edilib, kəmərləri zədələməmək üçün həmin əraziyə balıqçı gəmilərinin girməməsi barədə gəmi kapitanları və heyət üzvləri təlimatlandırılıb.

İdarə rəhbərliyi tərəfindən şəxsi heyətlə aparılmış məqsədyönlü təşkilati, profilaktiki, intizam və nəzarət tədbirləri nəticəsində heç bir qanun pozuntusuna yol verilməyib, sağlam mənəvi-psixoloji mühitin yaradılması və qorunub saxlanması təmin olunub.

Beləliklə, əminliklə deyə bilərik ki, bütün sınaqlardan alnıaçıq və üzüağ çıxmış, yüksək ixtisaslı və peşəkar şəxsi heyətə malik Su Nəqliyyatında Polis İdarəsi müasir dövrün tələblərini və tapşırılmış sahənin məsuliyyətini dərk edərək bundan sonra da xidməti vəzifələrini əzmlə yerinə yetirəcək, cinayətkarlıqla mübarizədə daha böyük nailiyyətlər qazanacaq, bu mühüm strukturun tarixi və şərəfli ənənələrini davam etdirəcək, onu yeni uğurlar, peşəkarlıq və qəhrəmanlıq nümunələri ilə zənginləşdirəcək.

Otellərdə hansı pulsuz xidmətlərdən istifadə etmək olar?

Əlavə ödənişli xidmətlərlə yanaşı, bir çox otellərdə müsafirlərin bilmədiyi pulsuz xidmətlər də mövcuddur.

"YandexDzen" saytı mehmanxanaların əksəriyyətində təqdim olunan pulsuz xidmətlərin siyahısını açıqlayır.

Xidmət səviyyəsinin artırılması

Otelə daxil olduğunuzda sizə yüksək kateqoriyalı otaq verilməsi üçün əməkdaşlara müraciət etməkdən çəkinməyin. Bu cür xahişin sizə heç bir zərəri olmayacaq və müəyyən şəraitlərdə daha geniş otaq əldə edə bilər və əlavə güzəştlər, hətta hədiyyələr də qazana bilərsiniz. Yeri gəlmişkən, küncdə yerləşən otaqlar adətən sahəsinə görə daha böyük olur. Siz təəccüblənəksiniz ki, otel personalı xidmət səviyyəsinin yüksəldilməsi ilə bağlı xahişinizə müsbət cavab verir.

Başlıca nəticə isə bundan ibarətdir ki, siz oteldə özünüzü daha rahat hiss edəcək və müəyyən bonuslar, habelə hədiyyələr əldə etməklə evdə unutduğunuz əşyalarla bağlı stress də keçirməyəcəksiniz.

Tikiş üçün əşyalar

Turistlər səyahət üçün özləri ilə məhdud sayda paltar götürürlər. Bu səbəbdən sizin geyiminizlə bağlı hər hansı problem, xüsusən onların korlanması əlavə problemlər yarada və istirahətinizi korlaya bilər. Əgər düymələriniz qopubsa, sadəcə qeydiyyat otağına müraciət etməyiniz kifayətdir. Orada sizə pulsuz olaraq iynə və sap verəcəklər. Artıq bir neçə dəqiqədən sonra sizi narahat edən problemdən qurtulacaqsınız. Bundan başqa, paltar təmiri üçün iynə-sap bir çox mehmanxanaların otaqlarında rəflərə qoyulur

Baqajın saxlanması xidmətləri

Turistlər çox vaxt otel nömrəsini günortaya qədər boşaldır, lakin aeroporta axşama yaxın yollanırlar. Bir çoxları bu müddət ərzində şəhəri gəzir, nahar edir, boş vaxtını dəniz kənarında və ya görməli məkanlarda keçirirlər. Amma çamadanlar və digər əl yükləri onların vaxtını və fiziki gücünü alır. Otellərin bir çoxu öz müştərilərinə öz baqajlarını xüsusi saxlama otaqlarında yerləşdirməyə şərait yaradır. Əgər sizin aeroporta transferə qədər kifayət qədər vaxtınız varsa, o zaman bu xidmətlərdən istifadə etməlisiniz.

Xəritə

Tanımadığınız şəhərdə istədiyiniz yerləri tapmaq sizin üçün çətin olacaq. Bir çox mobil cihazlar bunun öhdəsindən yaxşı gəlir. Lakin bəzən internet olmur və bu səbəbdən istiqaməti müəyyən etmək çətinləşir. Bu səbəbdən turistlər klassik kağız xəritədən istifadə etməli olurlar. Onları otellərin resepsionunda əldə etmək olar. Bundan başqa, otel əməkdaşları da xəritəyə baxaraq sizə görməli məkanların yerlərini göstərə bilərlər.

Otelə transfer

Oteldə otaq sifariş etdiyinizdə sizə pulsuz transfer imkanlarını da öyrənmək məsləhət görülür. Sizin mehmanxananın ulduzları nə qədər çox olarsa, sifariş vaxtı bu xidmətdən istifadə etmək ehtimalı da daha yüksək olacaq. Pulsuz transfer vaxtınıza qənaət etmək və tanış olmayan şəhərdə mehmanxanaya necə getmək barədə sizin narahatlığınıza və əsəb gərginliyinə son qoyacaq.

Çətir

Turistlər çox nadir hallarda özləri ilə səyahətə çətir götürürlər. Amma turizm məkanlarının çoxunda tez-tez yağışlar yağır. Bu məsələdə heç də otellərin hamısı sizə kömək etməyəcək, amma resepsiona yaxınlaşaraq xahiş etmənizdə fayda var.

Şarj aləti

Bu gün hər bir turistin üzərində mobil telefon olduğunu nəzərə aldıqda, onun üçün şarj alətini unutmamaq da çox mühümdür. Təəssüf ki, səyahətdən əvvəl öz əşyalarını toplayanlar bəzən bunu unudurlar. Otellərdə, hətta üçulduzlu mehmanxanalarda resepsionlardan bu aləti xahiş edə bilərsiniz. Telefonunuzun işlək vəziyyətdə olması sizə internetə çıxış üçün də faydalı olacaq.

Elektrik cihazları üçün keçiricilər

Uzun məsafəyə səyahət zamanı turistlər özlərinin elektrik cihazlarının yerli rozetkalara uyğun gəlmədiyi və elektrik şəbəkəsində gərginliyin 220 Volt deyil, 110 Volt olması halları ilə rastlaşırlar. Təəssüf ki, bu cür hallarda xüsusi keçiricilər və adapterlər lazım olur. Bir sıra otellər bu cür cihazlara malikdir və onları başqa ölkələrdən gəlmiş səyahətçilərə məmnuniyyətlə təqdim edirlər.

Əlavə sabun və digər gigiyena vasitələri

Əlbəttə, otellərin hamısında sabun mövcuddur. Həmçinin, sizin üçün duş geli və ya saç üçün kondisioner çatışmadıqda belə, cəsarətlə resepsiona müraciət edə bilərsiniz. Yeri gəlmişkən, kiçik qablarda olan sabunlar sizə gələcək səyahətinizdə, xüsusən təyyarədə əl baqajı ilə uçduğunuz vaxt lazım ola bilər. Otellərdə digər gigiyena vasitələrini də - diş pastası, dezodorant, üz qırxan, hətta kosmetikanı da pulsuz əldə etmək olar. Bu əşyaları turistlər çox vaxt evdə unudurlar, ona görə də hər ehtimala qarşı otellər onları müsafirlərinə təklif edirlər.

Avtomobili otelin yaxınlığında park etmək

Bir çox səyahətçilər kirayə avtomobil götürür, yaxud otelə şəxsi nəqliyyat vasitəsi ilə gəlirlər. Bu, sərfəlidir. Çünki şəxsi avtomobilinizlə siz ətrafı daha yaxşı öyrənə, habelə turistlərin kütləvi ekskursiya etmədiyi guşələrə yollana bilərsiniz. Tez-tez avtomobili harada park etməklə bağlı problem yaranır. Adətən, otellərin yaxınlığındakı park yerləri ödənişli olur. Lakin mehmanxananın ərazisində bu xidmətdən pulsuz istifadə etmək olar. Hərçənd, bir sıra xarici ölkələrdə bu praktikadan az istifadə olunur. Amma otellərə müraciət etməklə bu problemi həll edə bilərsiniz.

Müsafirlər əksər hallarda otellərdə nəyi yaddan çıxarırlar?

Biz hamımız yola çıxarkən əşyalarımızı topladıqda əksər hallarda nəyisə yaddan çıxarırıq. Bəzən bu, nəticədə mənzilbaşında əldə edə biləcəyimiz hansısa kiçik əşya da ola bilər. Bəzi hallarda isə mühüm əşya səbəbindən səfər pozula bilər. Turistlər tərəfindən təsadüfən otel nömrələrində yaddan çıxarılan əşyaların özünəməxsus reytinqi mövcuddur.

Mehmanxana və otellərin tərtib etdikləri daha çox yaddan çıxarılan kiçik əşyaların siyahısı bəzən özünün qeyri-adiliyi ilə təəccübləndirir. "Sabai.tv" portalı həm gündəlik işlənən, həm də qeyri-adi əşyalardan nümunələr gətirir.

Çimərlik ləvazimatı

Kurortlarda qonaqların gedişindən sonra onların çimərlik geyimi və məhrəba kimi çimərlik ləvazimatını yaddan çıxarmalarına tez-tez rast gəlmək olar. Həm də bunların əksəriyyəti bilərəkdən yaddan çıxarılır. Çünki onların fikrincə, iki il ardıcıl eyni çimərlik geyimində insanların qarşısına çıxmaq yaxşı deyil.

Günəş eynəkləri

Adətən bu aksesuar tələsik çıxdıqda haradasa dolabçanın üstündə, yaxud vanna otağındakı güzgünün qarşısında qalır; həmçinin şəxsi gigiyena əşyaları da – üz qırxma cihazı, diş fırçası və məcunu, duş üçün lif və gellər. Bunların bəzisi əlbəttə ki, bilərəkdən saxlanılır, çünki evdə onlara o qədər də ehtiyac olmur, digər tərəfdən də baqajda artıq yük əlavə narahatlıq yarada bilər.

Kiçik əşyalar

Kiçik əşyalar bəzən divan və çarpayının altına düşür və onları görmək mümkün olmur.

Diş protezləri

Su ilə dolu stəkanda qoyulmuş diş protezləri maraqlı və məzəli tapıntı hesab edilir.

İçərisində geyim olan çamadanlar

Bəziləri tələsik olaraq geyimlərini, hətta bəzən qarderobu ilə dolu çamadanını belə qoyub gedirlər. Belə hallarda həyəcanlanmaq lazım deyil, çünki mehmanxana qaydalarına müvafiq olaraq, bu əşyalar bir il ərzində yaddan çıxan əşyaların saxlandığı xüsusi anbarlara yerləşdirilir.

Bəzək əşyaları

Yatarkən çıxarılan bəzək əşyaları çarpayının yanındakı dolabçanın üstündə yaddan çıxaraq otel əmlakına çevrilə bilər.

Enerji yükləyiciləri və batareyalar

Enerjidoldurma qurğularına boşaldılan otağın hər birində rast gəlmək mümkündür, çünki smartfonlar və noutbuklar oteldən çıxanadək qidalandırıcı blokda olur, yalnız yola düşən anda baqaja qoyulur.

Saçqurudan və su qaynatma cihazı

Elə hallar da olur ki, otel xidmətçiləri müsafirlərin yaddan çıxardıqları saçqurudan və su qaynadan cihazı aşkarlayırlar. Xırda şey olsa da, belə aksesuarların itməsi sahibinə mənzilbaşına çatdıqda xoşagəlməz anlar yaşadır.

Dərmanlar

Adətən istirahət zamanı dərmanlar çarpayının yanındakı dolabçalarda, yaxud vanna otağındakı rəflərdə saxlanılır. Çox vaxt geriyə dönəndə bu gözdəniraq yerlərə heç kim nəzər yetirmir. Müsafirdən sonra isə "otelin dərman qutusu"na tibbi preparatlar əlavə olunur.

Pasport və digər sənədlər

Bu itki təkcə evə çatdıqda "başağrısı" yaratmır, həm də geriyə olan bütün yolu poza bilər. Sənədlərin itkisindən yaxa qurtarmaqdan ötrü onların keyfiyyətli surətlərindən istifadə etmək məsləhətdir.

Kiçik heyvanlar

Bəzi hallarda yerli bazarlardan alınan kiçik heyvanlar da mehmanxana nömrələrində unudulur. Uşaqlar tez-tez tısbağa və ya balıq aldırır, nəticədə bunların tamamilə lazımsız olması məlum olur.

Sözardı əvəzi

Əslində, bu siyahını sonsuzadək uzatmaq mümkündür. Geriyə qayıtmaq, yaxud digər yerə getmək üçün əşyalarını toplayan turistlərə nə məsləhət vermək olar? Əlbəttə ki, qabaqcadan zəruri əşyaların siyahısını tərtib etmək, sevimli əşyaları yaddan çıxarmamaqdan ötrü bütün dolabçaları, rəfləri, künc-bucağı təkrar-təkrar yoxlamaq lazımdır.

Xoşa gəlməyən davranışlar

Otel biznesi üzrə ekspertlər turizm mərkəzlərində müsafirlərin otel əməkdaşlarının xoşuna gəlməyən davranışları ilə bağlı 11 səhvi göstəriblər.

tourprom.ru saytı xəbər verir ki, 12 il mehmanxana biznesi sahəsində fəaliyyət göstərən ekspert Pedro Riçardson bu səhvlərin ən birincisinin oteldə xalatla gəzmək olduğunu bildirib. Onun sözlərinə görə, turistlər bu geyimdən yalnız öz otağında, SPA prosedularında və hovuza gedərkən istifadə edə bilərlər. Digər hallarda xalat geyinmək uyğun deyil.

Turistlərin davranışında ikinci xoşagəlməz hal birbaşa otelə gələrək nömrə tələb edilməsidir. Otel sahibləri qeyd edirlər ki, onların ən azı bir gün əvvəl otaq sifariş etmələri daha məqsədəuyğundur. Belə olan halda otağın təmizlənməsi üçün foyedə gözləmək lazım gəlir.

Otel əməkdaşlarını narahat edən digər amil resepsionda yersiz olaraq stolüstü zəngə basılmasıdır. Onların sözlərinə görə, bu, personalı narahat edir və pis davranış göstəricisidir. Bundan başqa, turistlərə qeydiyyat zonasında izdiham yaratmaq məsləhət görülmür. Onların öz növbəsini foyedəki kreslolarda gözləməsi daha məqsədəuyğundur.

Otel sahibləri adi nəzakət qaydalarını da xatırladırlar. Onlar ailəli müsafirlərə məsləhət görürlər ki, başqa qonaqları narahat etməmək üçün uşaqların səs-küy salmasına imkan verməsinlər. Yaşlı turistlərə isə ucadan danışmamaq və öz aralarında, yaxud telefonda söhbət edərkən təhqiramiz sözlərdən istifadə etməmək tövsiyə edilir. Bundan başqa, hovuzların kənarında çoxlu miqdarda spirtli içkilər qəbul etmək də məsləhət görülmür.

Nəhayət, otel əməkdaşları qeyd edirlər ki, turistlər su və işıq üçün pul ödəmədiklərindən otaqdan çıxdıqları vaxt işığı və televizoru söndürmürlər. Müntəzəm olaraq təmizlik işləri aparılan otel otaqlarını həddindən çox zibilləmək də lazım deyil. Bu, təmizlik işlərinin müddətini daha da uzadır.

Sonda turistlərə otelə giriş zamanı bu müəssisənin davranış qaydalarını diqqətlə oxumaq məsləhət görülür.

Gəmi ilə gəzinti uşaqların ürəyincə olub

Nəsimi rayon İcra Hakimiyyəti ilə Dənizkənarı Bulvar İdarəsinin birgə təşkilatçılığı ilə uşaqlar üçün Xəzər dənizində gəmi gəzintisi təşkil olunub.

Nəsimi RİH-dən verilən xəbərə görə, dəniz səyahətində rayon məktəbləri arasında təhsildə və idmanda fərqlənən, şəhid və veteran ailələrindən, həmçinin sosial qayğıya ehtiyacı olan ailələrdən olan bir qrup şagird iştirak edib. «Mirvari» gəmisi ilə Xəzərdə gəzinti məktəblilərin hədsiz sevincinə səbəb olub. Uşaqların böyük hissəsi ilk dəfə idi ki, dəniz gəzintisinə çıxırdı...

Nəsimi rayon İcra Hakimiyyətinin və Dənizkənarı Bulvar İdarəsinin əməkdaşları uşaqlarla səmimi söhbət edərək dövlətimiz tərəfindən onların təhsili, sağlamlığı və istirahəti istiqamətində görülən işlərdən, Prezident İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın gələcəyimiz olan uşaqlara diqqət və qayğısından danışıblar. Uşaqlar və onların müəllimləri Bakı buxtasından əzəmətli Dövlət Bayrağı Meydanını, buradakı «Kristall zalı», yeniləşən Bakı Bulvarını, şəhər mərkəzində yeni istifadəyə verilmiş və əsaslı təmir olunmuş bina və digər obyektləri heyranlıqla seyr ediblər.

Keçirilən tədbir və dəniz gəzintisi məktəblilərin yaddaşında xoş izlər buraxıb, onların müəllim və valideynlərinin razılığına səbəb olub.

Beynəlxalq daşımalar zamanı ƏDV necə tənzimlənir?

Vergi Məcəlləsinin 165.1.4-cü maddəsinə əsasən, beynəlxalq poçt xidmətləri istisna olmaqla, beynəlxalq tranzit yük və sərnişin daşınması, habelə tranzit yük daşınması ilə bilavasitə bağlı olan yükayrılma xidməti, həmçinin beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsi və xidmətlərin göstərilməsi əməliyyatı zamanı ƏDV 0 (sıfır) dərəcə ilə tətbiq olunur.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən bildirilib ki, maddədə diqqət çəkən digər məsələ beynəlxalq sərnişin daşınması ilə bağlı əməliyyatlardır.

Belə ki, bəzi vergiödəyicilərinin fikrincə, aviaşirkətlər vergiödəyicilərinə xarici ölkələrə səfərlərlə bağlı təyyarə bileti satdıqda bu əməliyyatlar ƏDV-yə 0 dərəcə ilə cəlb olunur. Ancaq təyyarə biletlərinin satışı ilə məşğul olan ƏDV ödəyiciləri ƏDV-yə ümumi qaydada, yəni 18 faiz dərəcə ilə cəlb edilirlər.

Dunay çayı sularında birgə təlim keçirilib



Ukrayna və Rumıniyanın hərbi-dəniz qüvvələrinin Dunay çayı sularında birgə təlimi keçirilib.

Ukrayna Müdafiə Nazirliyinin məlumatına görə, "Riverine 2019" adlı hərbi təlimdə hər iki ölkədən 300 hərbçi və beş hərbi gəmi iştirak edib. Birgə təlim sentyabrın 7-də başa çatıb.

Qeyd edək ki, Avropa İttifaqına üzv olan 18 ölkədən 3 mindən çox hərbçinin iştirakı ilə sentyabrın 19-da Baltik sularında NATO-nun genişmiqyaslı təlimləri də planlaşdırılır.

Emil Hüseynli

Heyət üzvləri azadlığa buraxılıb

İran Böyük Britaniyaya məxsus "Stena Impero" adlı gəminin həbs etdiyi 7 nəfər heyət üzvünü azadlığa buraxıb.

Bu barədə məlumatı İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Abbas Müsəvi yayıb. O bildirib ki, həyata keçirilən bəzi araşdırmalardan sonra heyət üzvləri azad edilib.

Azad edilənlərin 3 nəfəri Rusiya vətəndaşıdır. Onlar müqavilə əsasında Britaniyaya məxsus gəmidə çalışırlar.

Rusiyanın İrandakı səfirliyi məlumatı təsdiqləyib. Səfirliyin açıqlamasında bildirilib ki, Rusiya vətəndaşlarının azad edilməsi haqqında İran tərəfi ilə danışıqlar aparılıb.

Xatırladaq ki, İranın "Adrian Dara" adlı neft tankeri Hibraltarda Britaniya tərəfindən həbs edildikdən sonra İran da Fars körfəzi ölkələrindən neft daşıyaraq Hörmüz boğazından keçərək Britaniya gəmisini həbs etmişdi. ABŞ-ın təkidlərinə baxmayaraq Britaniya məhkəməsi İran tankerini azad etdi. Lakin İran hələlik Britaniya gəmisini azad etməyib. Sadəcə olaraq 7 nəfər heyət üzvünü azadlığa buraxıb.

Abbas Müsəvi bildirib ki, məhkəmə araşdırması tam başa çatdıqdan sonra Britaniya gəmisinin azadlığa buraxılıb-buraxılmaması haqqında qərar veriləcək.

Rabil Kətanov

İtaliyanın hərbi-dəniz gəmisi 29 miqrantı xilas edib

İtaliyanın hərbi-dəniz gəmisi Siciliya adasında yerləşən Poççallo şəhərində 29 liviyalı miqrantı xilas edib.

Miqrantlar Lampeduza adasının cənub hissəsində hava ilə doldurulan rezin qayıqda olublar.

Asiman Əsədov

İtkin düşən 4 heyət üzvü 30 saat sonra tapılıb

Koreyaya məxsus olan "Golden Ray" yük gəmisinin ABŞ-ın Corciya ştatının sahilləri yaxınlığında qəzaya uğraması nəticəsində itkin düşmüş 4 dənizçinin hamısı xilas edilib.

"Yonhap" agentliyinin verdiyi xəbərə görə, hamısı Cənubi Koreya vətəndaşı olan 20 nəfər sentyabrın 8-də baş verən qəzadan dərhal sonra Birləşmiş Ştatların Sahil Mühafizə Xidmətinin əməkdaşları tərəfindən helikopter vasitəsilə xilas ediliblər. Amma qəzadan sonra alovlanan gəmidən maşın hissəsində qalmış 4 nəfəri xilas etmək həmin gün mümkün olmayıb. Xilasedicilərin gərgin əməyi sayəsində qəzadan 30 saat sonra, sentyabrın 10-da itkin düşən 4 heyət üzvü də tapılaraq xilas edilib. Onlar tibbi müayinə üçün hospitala yerləşdiriliblər.

Cənubi Koreyanın Prezident ofisi dənizçilərin xilas edilməsinə görə ABŞ Sahil Mühafizə Xidmətinə təşəkkür edib.

Elektron bilet: istifadəçi üçün hər cəhətdən sərfəli xidmət

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) müştərilərə təqdim etdiyi elektron bilet xidmətinə maraq çoxalıb. Belə ki, cari ilin yanvar-iyul ayları ərzində avtomobillərin və sərnişinlərin daşınması məqsədilə online qaydada 120-dən çox bilet alınıb.

Gediş-gəlişin ən çox müşahidə olunduğu istiqamət Ələt-Aktau olub.

Qeyd edək ki, Gəmiçilikdə online bilet satışı sistemi 2016-cı ildən tətbiq edilir.

Elektron bilet xidməti ölkəmizdən keçən beynəlxalq nəqliyyat marşrutlarına cəlbediciliyin yüksəldilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə ilə yük və sərnişin daşımalarında sənədləşmənin sadələşdirilməsi və operativliyin artırılması məqsədi ilə gerçəkləşdirilir. Üstəlik, bu xidmət daha güvənli və sərfəlidir.

Bu sistem istifadəçi üçün vaxt itkisinin qarşısının alınması baxımından da çox əlverişlidir. Yükün növü, yüklənmə və gediş limanları, ödəyən şəxs və daşınan nəqliyyat vasitəsi barədə məlumatlar daxil edildikdən sonra biletin qiyməti avtomatik hesablanır.

Xatırladaq ki, xidmətdən yararlanmaq üçün ASCO-nun internet saytında onlayn ödəniş üçün müvafiq xanalar doldurulmalıdır. Ro-Ro və bərə gəmiləri ilə müxtəlif tipli avtomobillərin və sərnişinlərin daşınması sifarişini aşağıdakı internet ünvana daxil olmaqla etmək mümkündür: https://public.acsc.az/online/payment/index/az/

ASCO müasir texnologiyaların tətbiqi ilə bağlı səylərini bundan sonra da davam etdirəcək.

Aral dənizini xilas etmək istəyirlər

BMT-nin Asiya və Sakit okean üzrə iqtisadi və sosial komissiyasının (UNESCAP) mənzil-qərargahında fəlakət təhlükəsinin azaldılması üzrə Komitənin 6-cı sessiyasında, "Ətraf mühit və fəlakət: Asiya-Sakit okean regionunda nöqsanların aradan qaldırılması" adlı paralel tədbir çərçivəsində Aral dənizi hövzəsi üçün BMT-nin Xüsusi proqramının (UN SPAS) təqdimatı keçirilib.

Türkmənistan XİN-in saytı xəbər verir ki, tədbirdə BMT-yə üzv ölkələrin nümayəndə heyətlərinin rəsmi təmsilçiləri, BMT-nin Banqkokda yerləşən struktur bölmələrinin ekspertləri, ictimai təşkilatların və elmi birliklərin nümayəndələri iştirak ediblər.

Məruzədə Aralın Xilası Beynəlxalq Fonduna sədrlik edən ölkə kimi Türkmənistanın rolu və Aral dənizi hövzəsi üçün BMT-nin Xüsusi proqramının (UN SPAS) gələcək formatının müəyyənləşdirilməsi üzrə qarşıdakı çoxtərəfli məsləhətləşmələrin vacibliyi vurğulanıb.

Çıxışları müşayiət edən videotəqdimatlar "BMT-Aralın Xilası Beynəlxalq Fondu" formatında çoxtərəfli məsləhətləşmələrin hazırlıqları üzrə Türkmənistanın atdığı addımlar və Aral dənizi hövzəsi üçün BMT-nin Xüsusi proqramının pilot layihəsinin buraxılması barədə əyani təsəvvür yaratmağa imkan verib.

Günün ikinci yarısında Banqkokda, BMT-nin konfrans mərkəzində fəlakət təhlükəsinin azaldılması üzrə Komitənin 6-cı sessiyasının iclasında Aral dənizi hövzəsi üçün BMT-nin Xüsusi proqramı barədə məruzə təqdim olunub.

Avropanın ən iri gölü turistlər üçün populyarlığını qoruyub saxlayır

Macarıstan Turizm Bazarının Tədqiqi və Təşkili Assosiasiyasının keçirdiyi sorğunun nəticələrinə görə, Avropanın ən iri gölü olan Balaton turistlər üçün populyarlığını qoruyub saxlayır. Bu ölkənin vətəndaşları ilə yanaşı, qonşu Avstriyadan gələn turistlər də gölün yaxınlığındakı istirahət zonasına təkcə yayda deyil, həm də qışda axın edirlər.

Respondentlərin üçdəbiri bildirib ki, onlar "Macarıstanın dənizi" adlanan bu istirahət məkanına hər il gedirlər. Bu turizm istiqamətini ən sevimli adlandıran səyahətçilərin arasında gənclərin sayı getdikcə artır. Belə ki, 18-29 yaş arasında olan gənc respondentlər Balatona festivallarda iştirak etmək üçün yaşlı insanlar isə qastronomik tədbirlərə və şərab dequstasiyalarına qatılmaq üçün getdiklərini bildiriblər.

Balaton gölünün ətrafındakı ən populyar məkanlar Şiofok, Tixan və Balatonfüred kurortlarıdır. Gölün qərbində yerləşən Heviz termal su şəhərciyi də turistlərin sevdiyi məkandır.

Pərvanə Qarayeva

Dunay çayının üzərində körpü tikiləcək



Avropanın regional inkişaf fondu Rumıniyanın cənub-şərqində Braila şəhərində Dunay çayının üzərində körpünün inşası üçün 363,3 milyon avro ayırıb.

Layihənin əsas məqsədi regionda həyat keyfiyyətini yaxşılaşdırmaq, Moldova və Ukrayna ilə əlaqələri inkişaf etdirməkdən ibarətdir.

Yeni körpü "TransAvropa" nəqliyyat şəbəkəsinin bir hissəsi olaraq, Rumıniyanın şimalı ilə Dunay deltasını və ölkənin cənubunda Konstanta limanları arasında əlaqəni yaxşılaşdıracaq. Layihənin 2023-cü ildə bitirilməsi gözlənilir.

İqbal Hacıyev

Heyət xilas olsa da...

ABŞ-ın Kaliforniya ştatı sahillərində yanğın nəticəsində qəzaya uğrayan kiçik gəmidə yanaraq ölmüş 25 nəfərin cəsədi aşkar edilib. Birləşmiş Ştatların Sahil Mühafizə Xidmətinin məlumatına görə, daha 9 itkin düşmüş şəxsin axtarışı davam edir.

BBC telekanalının saytı xəbər verir ki, gəmidə yanğın Los-Anceles şəhərinin 145 kilometr qərbində yerləşən Santa Kruz adasının yaxınlığında başlayıb. Şəhərin polis rəisi Bill Braun bildirib ki, gəminin göyərtəsində 39 nəfər olub və heyətin 5 üzvü sağ qalıb. Ölənlərin hamısı sərnişinlərdir, onlardan 9 nəfəri isə yanğın vaxtı suya tullanıb.

"New York Times" qəzetinə müsahibə verən gəminin sahibi Bob Hansen bildirib ki, yanğının səbəbi yanacağın sızması ola bilər. Onun sözlərinə görə, yanğın vaxtı göyərtədə olan oksigen və propan qazı balonları da partlayıb.

Yer kürəsi ölçüsündə qeyri-adi planet kəşf edilib

ABŞ-ın Aeronavtika və Kosmik Tədqiqatlar Milli Agentliyinin (NASA) mütəxəssisləri Yer kürəsi ölçüsündə və atmosferi olmayan qeyri-adi planet kəşf ediblər.

LHS 3844b adlandırılan planet Yerdən 48,6 işıq ili uzaqlıqda yerləşir və "qırmızı cırtdan" və ya M spektral sinfə məxsus olan ulduzun ətrafında fırlanır. Onun radiusu bizim planetin 1,3 hissəsi qədərdir və ulduzun ətrafında tam olaraq cəmi 11 saat ərzində fırlanır.

Astronomlar bildirirlər ki, "qırmızı cırtdana" qədər olan məsafə qısa olduğundan, LHS 3844b planeti həmişə ulduza tərəf bir yönü ilə baxır. Məhz bu amil planetin atmosferinin olmadığı qənaətini hasil etməyə imkan verir. Planetin "gündüz" hissəsi 770 dərəcə Selsiyədək qızır, "gecə" tərəfi isə bir az sərin olur. Temperaturun bu qədər yüksək olması da planetin atmosfersizliyi ilə əlaqədardır. Onun hər iki tərəfindəki isti və sərin hava arasında fərq o dərəcədə böyükdür ki, astronomların sonuncu ehtimalı tamamilə təsdiqlənir.



Tədqiqatın müəllifi Lora Kraydberq bildirib ki, yeni planetdə temperatur ən yüksək həddi belə keçib. Onun sözlərinə görə, LHS 3844b daha çox atmosferi olmayan nəhəng daşı xatırladır.

Mütəxəssislər qeyd ediblər ki, bu planet səthləri kraterlər və bərkləşmiş lavalarla örtülmüş Ay və Merkuriyə daha çox bənzəyir.

Yanan qayıq sahildəki qayalara çırpılıb

Türkiyənin Marmaris bölgəsində yerləşən Keçi adası sularında üzən qayıqda baş verən yanğın böyük təhlükə yaradıb.

Sahilə doğru üzən qayıq yanğın səbəbindən idarəetməni itirib. Alovlanan qayıq sahildəki qayalara çırpılıb.

Sahil Təhlükəsizlik Qüvvələri yanğının meşəlik əraziyə keçməməsi üçün təxirəsalınmaz tədbirlər görüblər. Qayıqdakı üç nəfər xilas edilib. Qayığın batdığı bildirilir.

Sabir Şahtaxtı

Nəhəng pemza sahilə doğru üzür

"Science Alert" xəbər verir ki, Avstraliya sahillərinə doğru nəhəng pemza üzür. Onun ölçüsü təxminən 20 min futbol meydançasının sahəsinə bərabərdir.

Böyük sal daşı xatırladan vulkanik süxurun çoxlu yekə parçaları Avstraliya sahillərinə doğru tədricən axınla hərəkət edir.

Alimlər hesab edirlər ki, süngər daşı bir neçə həftə bundan əvvəl Tonqa ada krallığı yaxınlığında, Sakit okeanda sualtı vulkanın püskürməsindən sonra yaranıb. Nəhəng pemza lavanın sürətlə soyuması zamanı qazların ayrılması nəticəsində əmələ gəlib. O, çox yüngüldür və suyun səthində dayanır.

Süxur parçalarını ilk dəfə avqustun 9-da peyk vasitəsilə çəkilən şəkillərdə müşahidə ediblər. Eyni zamanda, "sal"ı avstraliyalı dənizçilər də görüb. Onlardan birinin sözlərinə görə, gəmi nəhəng pemzanın yanından azı 6 saat üzüb.

Ekspertlər xəbərdarlıq edirlər ki, axınla üzən süxur gəmilər üçün təhlükə yarada bilər. Eyni zamanda, alimlər onun əmələ gəlməsini müsbət dəyərləndirirlər. Axınla hərəkət edən pemza Böyük Baryer rifinin bir hissəsinin bərpası üçün potensial mexanizmdir. Əvvəllər belə daşları sağlam mərcanların və riflərin digər canlılarının əmələ gəlməsindən ötrü yaradırdılar.

İşıqforlarda əllərində döyüş qalxanı və baltası tutan vikinqlər təsvir edilib

Danimarkanın Orhus şəhəri işıqforları vikinqlərin təsviri ilə təchiz edib.

Hələlik 17 yeni işıqfor quraşdırılıb. İşıqforlarda adi işarələrin əvəzinə əllərində döyüş qalxanı və baltası tutan vikinqlər təsvir edilib.

Şəhər şurasının üzvü Buenyamin Simsektakimin sözlərinə görə, Orhus bununla şəhərin tarixi irsini vurğulayır. Qeyd edək ki, döyüşçülər buynuzlu dəbilqə olmadan təsvir edilib. Çünki şəhərin hakimiyyət orqanları vikinqlər tərəfindən "buynuzlu dəbilqə"dən istifadə faktının sübut olunmadığını hesab edir.

Qeyd edək ki, Orhus şəhəri vikinqlər tərəfindən hələ VIII əsrdə, Yutlandiya yarımadasının şərq sahilboyunda salınıb. Şəhər yarandığı vaxtdan regionun iqtisadi və mədəni mərkəzinə çevrilib və məşhur limana malik olub. Hazırda Orhus Danimarkanın ikinci ən böyük şəhəridir.

Rauf Əliyev

Timsahları dronla izləyəcəklər

Avstraliyada çimərliklərin yaxınlığında timsahların hərəkətini izləmək üçün süni intellektli dronlardan istifadə olunur.

BBC teleradio kompaniyası xəbər verir ki, Kvinslend ştatının Texnologiya Universitetinin əməkdaşlığı ilə "Little Ripper Group" kompaniyasının hazırladığı bu qurğular Avstraliya sahillərindəki okean sularında yaşayan 16 müxtəlif heyvan növünü, o cümlədən köpəkbalığını fərqləndirə bilir.

Təhlükəli obyekt aşkarlandığı zaman dronda həyəcan siqnalı və səsgücləndiricilər işə düşür, təhlükə ilə üzləşən üzgüçülərə havadan xilasetmə vasitələri atılır. İlk vaxtlar innovativ dronlardan Kvinslend çimərliyi səmasında istifadə olunacağı gözlənilir.

Timsahlar hər il yer üzərində 2 mindən çox insanın ölümünə səbəb olur. Ekspertlərin hesablamalarına görə, Avstraliyada, əsasən də ölkənin şimalında 200 minə yaxın timsah var.

Sualtı kitabxana



ABŞ-ın Florida ştatının Ki-Uest adasındakı iki otel sualtı kitabxana açıb.

RİA Novostiyə istinadla xəbər verir ki, orada ziyarətçilər birbaşa hovuzlarda kitab oxuya bilərlər.

Ziyarətçilər sukeçirməyən nəşrlərdən yalnız dünya klassiklərinin əsərlərini oxuya biləcəklər.

Xidmət pulsuzdur, suyun altında kitab oxumaq müddətsizdir.

Sürət qatarı bir saata 15 min sərnişin daşıyacaq

Böyük Britaniyanın nəqliyyat naziri Grant Shapps HS2 sürət qatarı layihəsinin ilk mərhələsi olan London-Birmingem xəttinin tamamlanmasının nəzərdə tutulduğundan beş il gecikə biləcəyini deyib.

Parlamentdə çıxış edən nazir həmin xəttin planlaşdırıldığı kimi 2026-cı ildə deyil, 2031-ci ildə tamamlanaraq istifadəyə veriləcəyini, HS2 sürət qatarı layihəsinin ümumi maliyyə məbləğinin isə 62 milyard funt sterlinqdən 88 milyard funt sterlinqə yüksəldiyini bildirib.

Britaniya hökuməti ötən ay maliyyə məsələsini əsas göstərərək layihəni araşdırmağa başlayıb.

Layihədə qatarların saatda 402 kilometrədək sürətlə hərəkət etməsi, şimal-cənub xəttində bir saata 15 min sərnişin daşınması planlaşdırılır.

YARIZARAFAT, YARIGERÇƏK

Cəsarət dənizçinin səmt küləyidir.

Ümidi yelkən olmayan dənizçinin gözü sahili seçməz.

Dəniz yalnız dənizçinin dilini aydın başa düşür.

Dənizdə dalğaların baş əydiyi dənizçiyə quruda dağlar da baş əyər.

Dənizçilərin mərdliyinə əmin olmasalar gəmidə oturanda, gəmiçi ilə dalaşmazlar.

Axmaqlarla bir dəfə oturub-durmaqdansa, tək gündə min dəfə oturub-durmaq yaxşıdır.

Ağıl yeganə şeydir ki, ağlı olmayan da "ağıl" verir.

Vaxtında və vaxtımız olanda görmədiyimiz ən kiçik işlər vaxtımız olmayanda ən böyük problemə çevrilir.

Hər şeydən çıxan başı belə, hər yerə salmaq olmaz.

Bəzi yerlərdə əsas işdir, bəzi yerlərdə əsas diş. Dişlərinizi qoruyun.

Hətta dünyanı bağışlaya biləcəyim dostuma da səhvlərini bağışlamaq istəmirəm.

İçi boş adamlar necə əyilməsinlər? İçi boşlar dik necə dursunlar?

Fikrini tez-tez dəyişənlərin nə sirdaşı olun, nə də yol yoldaşı.

Sizə kiminsə gözü ilə baxanlara, siz dünya işığına həsrət olanlara baxdığınız kimi baxın.

Yaxşı adam hesab etmədiyiniz kəslərə nifrət də etməyin. Adam hesab etməməyiniz yetər.

Çox adam əlindən gələni yox, cibindən gələni edir.

Ağcaqanadlar da daxil olmaqla, qanımızı içənlər daha çox hansı qan qrupuna üstünlük verirlər?

Komediya ustası olmadığım üçün məni görəndə çox adamın qanı qaralır?

Qorxduğumuz şeylər daha çox baş çıxartmadığımız şeylərdir.

Pul üçün hər şeyə gedən adamlar hətta doğmalarınız olsa belə, onlarla heç yerə getməyin.

Ağlasam güləcək, gülsəm ağlayacaq adamlar üzündən nə gülə, nə ağlaya bilirəm.

Məqsəd adama çatmalıdır ki, məqsədə çatsın.

Qarın qardaşdan irəli düşəndə bir eyib, sinəmizi qabağa vermək lazım gələndə qabağa düşəndə isə min eyib!

Oxu olan hədəf axtarar.

Mən indiyədək görməmişəm ki, söz təsir etməyən adama başqa vasitələr təsir etsin.

Bəzən susmaq danışmaqdan daha çox iradə tələb edir.

Allahım, bəziləri niyə bu qədər enə bilirlər?

İnsan insanlıqdan nə qədər çox imtina edirsə, o qədər də alçalır.

Səni kimsə sevirsə, çox şeyin var, ailən sevirsə, demək hər şeyin var.

Çaşanda da həqiqəti demək mümkün olmayan yerdə, yer niyə aralanmasın?

Görəsən fərarilər ən çox neçə kilometr qaça bilirlər?

Çox adam nə yediyini bilir, nə dediyini.

Güclü adamlar özlərini güclü hiss edirlər. Ağıllı adamlar həm də güclü!

Elə adamlar var ki, yalan danışmasalar, deməli heç nə deməyiblər.

Axırıncı yalanın olacaqsa, ona da birtəhər dözərəm, danış.

Özünü itirəni özündən başqa hamı görür.

Çox vaxt başımdan basanlar yalnız boyuma görə sevinə bilərlər.

Bir yaxşı insanı qoruya bilməyənlər min pisliyə yol açırlar.

Haqqın nə olduğunu bilməyənin kimdənsə küsməyə haqqı var?

Heç nəyi birdən qazanmaq mümkün deyil. Amma hər şeyi birdən itirmək olar.

Bu dünyada nə varsa, Allahın bizə əmanətidir. Biz də xəyanət edə-edə gedirik.

Rasif TAHİROV

"ASCO Dənizçi"-"Bibi-Heybət" oyununu izləməyi unutmayın

Futzal üzrə İkinci Liqanın 2019-2020-ci il mövsümünün püşkü atılıb.

Liqaya sentyabrın 15-də Bakı İdman Sarayında start veriləcək.

Püşkə əsasən birinci turda "Baker Tilly"-"Star karqo-2", "Zirvə Baku-2"–NTD, "Borçalı"-"Baker Hughes", "Altay"-"Gənclik", "Advokat"-"Təbriz", "Bədr Xocalı"-"-Timsport", "ASCO Dənizçi"-"Bibi-Heybət", "Hövsan"-"Emin spor", "Atletiko Baku"-"-Zülfüqar" və "Dalğa"-"Baku Fire-3" görüşləri keçiriləcək.

Dördüncü turda "Səbail" "Keşlə" ilə üz-üzə gələcək

Futbol üzrə Azərbaycan Premyer Liqasının dördüncü turuna sentyabrın 14-də "Kapital Bank Arena" keçiriləcək "Sumqayıt"–"Zirə" oyunu ilə start veriləcək. Oyun saat 18:00-da başlayacaq.

Həmin gün "Bank Respublika Arena"da baş tutacaq "Sabah"–"Qəbələ" matçını isə tamaşaçılar saat 20:00-dan izləyə biləcəklər.

Sentyabrın 15-də "Bakcell Arena"da keçiriləcək "Keşlə"–"Səbail" matçı saat 18:00-da oynanılacaq.

Turun mərkəzi və sonuncu oyunu - "Qarabağ" və "Neftçi" komandaları arasında baş tutacaq. Tofiq Bəhramov adına Respublika Stadionunda təşkil olunacaq görüş saat 20:00-da başlayacaq.

Turun bütün görüşləri "CBC Sport" kanalında canlı yayımlanacaq.

Üç turdan sonra turnir cədvəlinə 9 xalla "Qarabağ" klubu başçılıq edir. Altı xalı olan "Səbail" və "Keşlə" ikinci və üçüncü yerləri bölüşürlər. Digər pillələrdə müvafiq olaraq "Zirə" (4 xal), "Neftçi" (4), "Sumqayıt" (3), "Sabah" (2) və "Qəbələ" (0) qərarlaşıblar.

Qazanılan 12 medaldan 5-i qızıldır

Macarıstanın Györ şəhərində kikboksinqin WAKO versiyası üzrə Avropa çempionatı keçirilib.

Turnirdə 39 ölkədən 2 mindən artıq idmançı iştirak edib.

Milli komandamız Azərbaycan Kikboksinq Federasiyasının vitse-prezidenti Güloğlan Cabbarov və gənclərdən ibarət yığma komandanın baş məşqçisi Hakim Hacıyevin rəhbərliyi altında 29 idmançı ilə yarışa qatılıb.

Çempionatın yekununda Azərbaycan komandası ümumilikdə 12 medal qazanıb.

Bunlardan 5-i qızıl, 2-si gümüş və 5-i bürünc medaldır.

"Qarabağ"ın UEFA Avropa Liqasındakı oyunlarının təqvimi müəyyənləşib

"Qarabağ"ın UEFA Avropa Liqasının qrup mərhələsindəki oyunlarının təqvimi müəyyənləşib.

Ağdam təmsilçisi ilk turda İspaniyanın "Sevilya" komandasını qəbul edəcək.

Ölkə çempionu qrupdakı ikinci matçında Lüksemburqda "Düdelanj"ın qonağı olacaq.

Qurban Qurbanovun yetirmələri üçüncü turda doğma azarkeşlər önündə Kiprin "APOEL" komandası ilə qarşılaşacaq.

Dördüncü turda "Qarabağ" yenidən "APOEL" ilə, bu dəfə Kiprdə üz-üzə gələcək.

Beşinci turda ağdamlılar İspaniyada "Sevilya"nın qonağı olacaq.

Sonuncu - 6-cı turda isə "Qarabağ" öz meydanında "Düdelanj" komandası ilə qarşılaşacaq.

Oyunlar sentyabrın 19-da, oktyabrın 3-də, 24-də, noyabrın 7-də, 28-də və dekabrın 12-də keçiriləcək.

Bakı 14 ildən sonra yenidən bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək

Yayın son günləri gimnastika dünyasının diqqəti bir daha paytaxt Bakıya yönələcək. Bakı 14 ildən sonra yenidən ən önəmli yarışlardan birinə - bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək.

Sentyabrın 16-22-də keçiriləcək çempionat təkcə bütün dünyadan olan bədii gimnastların birincilik uğrunda mübarizəsi ilə deyil, eyni zamanda, 2020-ci ildə Tokioda təşkil ediləcək XXXII Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıması ilə əlamətdar olacaq. Altmış iki ölkənin qatılacağı çempionatda həm fərdi gimnastlar, həm də qrup hərəkətləri komandaları yeddi gün ərzində ayrı-ayrı alətlər və çoxnövçülük yarışlarında mübarizə aparacaqlar. Eyni zamanda, komanda hesabında ən güclülər müəyyənləşəcək.

Çempionatın ilkin qeydiyyat siyahısına əsasən, yarışda çıxış edəcək 300-dən çox gimnast Olimpiadaya yeni namizəd olmaq üçün bütün güclərini toplayaraq yarışacaqlar. Belə ki, fərdi proqramda çoxnövçülük üzrə ilk 16-lıqda yer alan gimnastlar (bir ölkədən maksimum 2 gimnast) lisenziya əldə edə biləcəklər. Qrup hərəkətləri komandalarına gəldikdə isə ötən ilin dünya çempionatının nəticələrinə əsasən Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin edib. Builki çempionatda çoxnövçülük xalları üzrə daha beş ən yaxşı komanda Tokioya vəsiqə qazanacaq.

"Nağıllar gerçəkləşək" devizi altında təşkil edilən çempionatın ən yadda qalan hissələrindən biri isə möhtəşəm açılış mərasimi olacaq. Təşkilatçılar bu dəfə də rəngarəng, bənzərsiz və izləyənləri nağıllar aləminə "səyahətə aparacaq" şou vəd edirlər. Mərasimdə Şərq motivləri əsasında səhnələşdirilmiş "Şərq nağılı" adlı şou ilə yanaşı, Azərbaycanın məşhur ifaçılarının iştirakı da təsdiqlənib.

Çempionatın məhz birinci günündə – açılış mərasimində respublikamızla yanaşı, digər ölkələrdə də məşhur olan Xalq artisti, hit mahnıların ifaçısı Emin Ağalarov sevilən nəğmələri ilə izləyənlərin qəlbini fəth edəcək. Tanınmış Azərbaycan müğənnisi və bəstəkarı, Əməkdar artist Tünzalə Ağayeva isə Azərbaycanın dövlət himnini akapella üslubunda ifa edəcək.

Açılış mərasiminin maraqlı məqamları bununla məhdudlaşmır. Mərasimdə dünya çempionatının ulduz səfiri Azərbaycanın sevilən müğənnisi, Əməkdar artist Miri Yusif məhz bu yarış üçün xüsusi yazılmış mahnını səsləndirəcək.

Dünya çempionatının səfiri bir neçə dəfə dünya çempionu, Olimpiya Oyunlarının mükafatçısı, rusiyalı gimnast Yana Batırşina da yarışları tamaşaçılarla birlikdə izləyəcək.

Çempionat zamanı Azərbaycan Gimnastika Federasiyasının rəsmi talismanı, hər kəsin sevimlisi "Qur-Qur" da tamaşaçılarla olacaq. Dünya səyahətindən Bakıya yenicə qayıtmış "Qur-Qur" təəssüratlarını azarkeşlərlə bölüşəcək.

Bundan başqa, yarış boyunca tamaşaçıları maraqlı müsabiqələr və əyləncəli anlar da gözləyir.

Əllərin soyuqdursa...

El arasında çox vaxt deyirlər: "Əllərin soyuqdursa, deməli, qəlbin istidir". Doğrudanmı belədir? Bəs təbabət bu barədə nə deyir? Terapevt qəbuluna gələn xəstələr də bu sualla müraciət edirlər: "Həkim, əllərim niyə soyuq olur?".

Həkim-terapevt Məlahət Osmanova əllərin soyuqluğunu belə izah edib: "Soyuq hava şəraitində əllərin və bədənin açıq sahələrinin üşüməsi təbiidir. Məsələ burasındadır ki, bəzi xəstəliklər nəticəsində yaranan soyuq əl hissi havanın temperaturundan asılı olmur. Bunun müxtəlif səbəbləri var. Məsələn, Reyno sindromu zamanı barmaqları qidalandıran qan damarları soyuq, yaxud stress nəticəsində sıxılır, krizis vaxtı barmaqlar üşüyür, göyərir və ağrılı olur. Damarlar əvvəlki vəziyyətinə qayıdanda isə əllər qızarır. Digər bir səbəb autommun xəstəliklərdir, buraya qırmızı qurd eşənəyi, sklerodermiya, revmatoid artrit və s. kimi xəstəliklər daxildir. Əsas xəstəlik vaxtında müalicə olunmayanda əl əlamətləri də zəifləyir. Hipotireozu qalxanvarı vəzi orqanizmin "termostateri" hesab edənlər haqlıdırlar. Onun funksiyaları zəifləyəndə orqanizmdə bütövlükdə mübadilə pozulması baş verdiyi üçün piylənmə, halsızlıq və üşümə əlamətləri baş verir. Anemiya zamanı qanda hər hansı səbəbdən yaranan dəmir çatışmazlığı nəticəsində qanın oksigenlə təchizatı pozulur və başağrıları, ümumi zəiflik, başgicəllənmə, təngnəfəslik kimi əlamətlərlə yanaşı, bədən üzvlərinin, xüsusən də əllərin soyuması baş verir".

Əllərdəki soyuqluğun digər səbəbləri barədə məlumat verən həkim-terapevt deyib: "Başqa bir səbəb B12 vitaminin çatışmazlığıdır, həmin vitamin ən çox ət, toyuq, yumurta və süd məhsullarında olur, qanda hemoqlobinin miqdarına cavabdehlik daşıyır. Ona daha çox vegeterianlarda, 50 yaşdan yuxarı olanlarda, Kron xəstəliyi zamanı rast gəlinir. Həmin vitaminə olan tələbatı ödəməklə problemi həll etmək olar.

Qan təzyiqinin aşağı olması – hipotoniya zamanı qan daxili orqanların işini təmin etmək üçün səfərbər olur, bu da öz növbəsində ətrafların qanla təchizatını zəiflədir. Hipotoniyanın bir çox səbəbləri var: qanaxma, bədənin susuzlaşması, sidikqovucu və başqa dərman preparatlarının qəbulu, endokrin xəstəliklər və s. Ətrafların soyumasından başqa başgicəllənmə, ürəkbulanma və ümumi halsızlıq kimi simptomlar müşahidə olunanda mütləq həkimlə məsləhətləşmək lazımdır. Stress və həyəcanın olması xroniki stress faktoru qanda adrenalinin miqdarını artırır və nəticədə qan damarlarının spazması baş verdiyinə görə əl və ayaqlar soyuyur. Dərman preparatları, məsələn, beta-blokatorlar, miqren əleyhinə preparatlar və s. damarları, xüsusən də arteriyaları daraltmaqla əllərin soyumasına səbəb olur. Siqaretçəkmə - nikotinin damardaraldıcı təsiri nəticəsində ətrafların qanla təchizatının zəifləməsi əllərin soyumasına aparan səbəblərdən biridir. Ona görə də istənilən halda əllərin soyuq olmasının səbəbini öyrənib onu aradan qaldırmaq üçün həkimə müraciət edilməlidir".

Rentgen şüalarının təsiri

Orqanizmdə baş verən dəyişiklikləri və meydana çıxan xəstəlikləri dəqiq müəyyən etmək üçün ilkin olaraq diaqnostik metoddan istifadə edilir. Çünki yalnız həmin metod vasitəsilə xəstənin hansı orqanında problemin baş qaldırdığını və onun hansı xəstəlikdən əziyyət çəkdiyini müəyyən etmək mümkündür.

Hazırda diaqnozun qoyulmasında müxtəlif vasitələrdən istifadə edilir. Həkimlərin üstünlük verdiyi müayinə vasitələrindən biri də rentgen, kompüter tomoqrafiyası və maqnit-rezonans tomoqrafiya şüalanmasıdır.

Dövlət Təhlükəsizliyi Xidməti Hərbi Tibb İdarəsinin həkim-radioloqu Elşən Rəhimovun AZƏRTAC-a verdiyi məlumata görə, xüsusən uşaqları rentgen və ya digər şüa-diaqnostika müayinələrindən keçirərkən diqqətli olmaq lazımdır: "Onların sümükləri və əzələ toxumaları bərkimədiyinə görə rentgen şüaları azyaşlılara mənfi təsir göstərə bilər. Yalnız 10 yaşından sonra uşaqların ildə bir dəfə olmaq şərtilə rentgenə salınması mümkündür. Yuxarı yaş həddində olanlara üç-dörd aydan bir rentgen və digər şüa müayinəsindən keçmək məsləhət görülür. Yaşı 60-dan yuxarı olanlar isə yalnız altı aydan bir rentgen müayinəsindən keçə bilər".

Həkim-radioloqun dediyinə görə, ildə bir dəfə maqnit-rezonans, altı aydan bir kompüter tomoqrafiyasından keçməyin orqanizm üçün mənfi təsiri olmur: "Lakin tez-tez keçmək qanda dəyişiklik və s. əmələ gətirə bilər. Ona görə də tez-tez müayinədən keçməyə çalışmaq lazım deyil. Hamilə qadınların kompüter, xüsusilə maqnit-rezonans tomoqrafiyasından keçməsi müəyyən problemlər yarada bilər".

Mütəxəssislərin fikrincə, rentgen şüasının orqanizmə mənfi təsirini azaltmaq üçün çoxlu maye qəbul etmək və açıq havada gəzmək lazımdır.

Dəniz suyu hamıya faydalıdır

Çoxları dənizdə təkcə istirahət etmək deyil, həm də müalicə olunmaq istəyir. Dəniz suyu ilə müalicə talassoterapiya adlanır. Dəniz suyu tərkibinə görə insan qanının plazmasına oxşayır. O, dərinin məsamələrindən qana keçib orqanizmi minerallarla zənginləşdirir. Dəniz suyunun müalicəvi təsiri haqqında çoxsaylı miflər mövcuddur...

"Rambler" dənizdə çimməyin faydaları haqqında populyar yeddi mifi nəzərdən keçirməyi təklif edir.

Mif 1. Dənizdə mümkün qədər çox çimmək.

Dənizdə çimməyin ideal vaxtı 10-15 dəqiqədir. Bu qədər vaxt orqanizmdə su-duz mübadiləsi prosesini işə salmağa yetərlidir. Dənizdə çimmə daha uzun sürərsə, bədənin soyuması və soyuqdəymə riski artır. Məsələ bundadır ki, duzlu su şirin suya nisbətən istini daha çox udur.

Mif 2. Dəniz suyu nə qədər isti olsa, bir o qədər yaxşıdır.

Sağlamlıq üçün temperaturu 20-24 dərəcə olan suda çimmək faydalıdır. Temperatur dəyişmələri və sərin suda fiziki fəallığın artması talassoterapiyanın mütləq şərtidir. Lakin hər bir xəstəliyin müalicəsinə müəyyən temperaturlu dəniz suyu lazımdır. Artıq çəkidən əziyyət çəkənlərə mübadilə proseslərini stimullaşdıran sərin su tövsiyə olunur. İlıq su ürək yığılmaları ritmini yavaşıdır, isti su, əksinə, sürətləndirir. Unutmayın ki, temperaturu 24 dərəcədən çox olan dəniz suyunda zərərli mikroorqanizmlər sürətlə çoxalmağa başlayır.

Mif 3. Dənizdə çimmədən sonra yuyunmamaq

Belə bir təzadlı fikir var ki, dənizdə çimmədən sonra yuyunmağa ehtiyac yoxdur, çünki dəridə qalan dəniz duzu sağlamlaşdırma prosesini davam etdirir. Doğrudur, dənizdən çıxandan sonra suyun təsiri hələ təqribən 20-30 dəqiqə davam edir. Lakin orqanizmin hüceyrələri dənizdə üzmə zamanı çoxlu toksin ifraz edir və bu toksinlər yuyulmalıdır. Əgər dəridə xora və yaralar varsa, onda dəniz suyu aşındırıcı təsir göstərib dermatoz deyilən dəri xəstəliyi törədə bilər. Bundan əlavə, hər dəniz suyunun təmiz olması ilə öyünə bilməz, bəzi şəhər çirməliklərində vəziyyət xüsusilə bərbaddır.

Əgər saçlarınız boyalıdırsa, onları islatmamaq, yaxud dənizdən çıxandan dərhal sonra yumaq lazımdır. Dəniz duzu yalnız saç dibi yağlı olan insanlara kömək edir.

Mif 4. Dəniz suyunda xalis yod yoxdur

Dəniz suyu sinir sisteminin müalicəsində istifadə olunan yod-bromla zəngindir. Bu maddənin dəniz suyunda konsentrasiyası optimaldır. Buna görə də dənizdə çimmək hətta ən əsəbi şəhər sakinini sakitləşdirir. Qaxanvari vəzi xəstəliklərindən əziyyət çəkənlər sahildə istirahəti həkimin təyin etdiyi preparatlarla uyğunlaşdırmalıdır.

Mif 5. Burun-udlağı dəniz suyu ilə müalicə etmək

Bu, həm mif, həm də həqiqətdir. Bir tərəfdən, dəniz suyu zərərli bakteriyalar üçün əlverişsiz mühitdir, onun tərkibində antiseptik və antibekterial təsirli komponentlər var.

Burun-udlağın dəniz suyu ilə yaxalanması nəzəri cəhətdən iltihabi xəstəliklərin müalicəsinə kömək etməlidir. Lakin limanlarda və qələbəlik yerlərdə dəniz suyu o qədər çirklənib ki, belə su ilə yaxalama mikrobların bəzilərini təmizləsə də, orqanizmi daha təhlükəli viruslara yoluxdura bilər. Ən təmiz dəniz suyu sahildən uzaqda iki min metrdən çox dərinlikdədir.

Mif 6. İçərisində dəniz suyu olan hovuz və vannalarda çimmə dənizdə çimməni əvəz edir

Dəniz suyu təbii mühitindən kənarda öz faydalı xüsusiyyətlərini 24 saatdan çox saxlaya bilmir. Belə çıxır, dəniz suyu doldurulmuş hovuzda çimmə yalnız o halda faydalı ola bilər ki, onun içindəki su hər gün dəyişdirilsin. Bir də, hovuzlardakı suya adətən xlor qatılır və bu da dəniz suyunun faydalı xüsusiyyətlərinin çoxunu məhv edir. Hələlik dünyanın heç bir laboratoriyası dəniz suyunun təbii tərkibini süni şəkildə yarada bilməyib.

Mif 7. Dəniz suyunun duzluluğu nə qədər çox olsa, bir o qədər faydalıdır.

Yanlış fikirdir. Duzun yüksək konsentrasiyası yalnız müəyyən xəstəliklərin müalicəsində faydalıdır. Məsələn, Ölü dənizdə çimmə ciddi dəri xəstəliklərindən əziyyət çəkənlərə faydalıdır. Duzluluq səviyyəsi aşağı, bir litr suda təqribən 18-20 milliqram olan dəniz suyu hamıya faydalıdır.

ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Dəniz Nəqliyyatı Donanması rəisinin müşaviri Hikmət Hüseynova

qardaşının

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dəniz Nəqliyyatı Donanmasının rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Dəniz Nəqliyyatı Donanması rəisinin müşaviri Hikmət Hüseynova

qardaşının

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 3066